CONSEIL DE L'EUROPE

COUNCIL OF EUROPE

COUR EUROPÉENNE DES DROITS DE L'HOMME
EUROPEAN COURT OF HUMAN RIGHTS

Avropa Şurası/Avropa İnsan Hüquqları Məhkəməsi, 2012. Bu tərcümə Avropa Şurasının İnsan Hüquqları üzrə Etibar Fondunun dəstəyi ilə həyata keçirilib (www.coe.int/humanrightstrustfund). Məhkəmə tərcüməyə görə heç bir məsuliyyət daşımır. Əlavə məlumat almaq üçün bu sənədin sonunda verilmiş müəllif hüququna dair tam məlumata baxın.

© Council of Europe/European Court of Human Rights, 2012. This translation was commissioned with the support of the Human Rights Trust Fund of the Council of Europe (www.coe.int/humanrightstrustfund). It does not bind the Court. For further information see the full copyright indication at the end of this document.

© Conseil de l'Europe/Cour européenne des droits de l'homme, 2012. La présente traduction a été effectuée avec le soutien du Fonds fiduciaire pour les droits de l'homme du Conseil de l'Europe (www.coe.int/humanrightstrustfund). Elle ne lie pas la Cour. Pour plus de renseignements veuillez lire l'indication de copyright/droits d'auteur à la fin du présent document.

CONSEIL
DE L'EUROPE

COUNCIL
OF EUROPE

COUR EUROPÉENNE DES DROITS DE L'HOMME
EUROPEAN COURT OF HUMAN RIGHTS

BEŞİNCİ BÖLMƏ

**YORQİC ALMANİYAYA qarşı İŞİ**

**(CASE OF JORGİC v. GERMANY)**

*(74613/01 saylı ərizə)*

QƏRAR

STRASBURQ

12 iyul 2007-ci il

**YEKUN**

*12/10/2007*

**Jorqic Almaniyaya qarşı məhkəmə işinə,**
Aşağıdakı tərkibdən:
*Peer Lorenzen*, *Sədr*,
*Snejana Botoucharova*,
*Volodymyr Butkevych*,
*Margarita Tsatsa-Nikolovska*,
*Rait Maruste*,
*Javier Borrego Borrego*,
*Renate Jaeger*, *hakimlər,*
və *Claudia Westerdiek*, *Bölmə Katibi*
ibarət Palatada baxan Avropa İnsan Hüquqları Məhkəməsi ,
19 iyun 2007-ci il tarixdə qapalı müşavirə keçirərək,
Həmin tarixdə qəbul edilən aşağıdakı qərarı çıxarmışdır:

PROSES

1. İş İnsan hüquqları və əsas azadlıqları haqqında Avropa Konvensiyasının ("Konvensiya") 34-cü maddəsinə əsasən Serb mənşəli Bosniya və Herseqovina vətəndaşı cənab Nikola Jorqic *(Jorgic)* ("ərizəçi") tərəfindən 23 may 2001-ci ildə Məhkəməyə təqdim edilmiş Almaniya Respublikasına qarşı ərizə (N° 74613/01) əsasında açılmışdır.

2. Ərizəçini Leypsiqdə vəkillik fəaliyyəti ilə məşğul olan cənab H.Qrünbauer *(Grünbauer)* təmsil etmişdir. Almaniya hökumətini ("Hökumət") onun nümayəndəsi Federal Ədliyyə Nazirliyində *Ministerialdirigentin* olan x-m A.Vitlinq-Voqel *(Wittling-Vogel)* təmsil etmişdir və ona Berlində yerləşən Humboldt Universitetinin hüquq fakültəsinin müəllimi c-b Q.Verle *(Werle)* köməklik göstərmişdir.

3. Ərizəçi Konvensiyanın 5-ci maddəsinin 1(a) və 6-cı maddəsinin 1-ci bəndinə əsaslanaraq iddia etmişdir ki, Almaniya məhkəmələrinin onu soyqırımı cinayətində mühakimə etmək üçün səlahiyyəti olmamışdır. Daha sonra o iddia etmişdir ki, Konvensiyanın 6-cı maddəsinin 1 və 3(d) bəndlərinin mənasına uyğun olaraq, onun məhkəməsi ədalətli olmamışdır, çünki daxili məhkəmələr müdafiə tərəfinin xaricdən çağırılmalı olan hər hansı şahidini çağırmaqdan imtina etmişlər. Bundan başqa o iddia etmişdir ki, onun soyqırımı cinayətinə görə məhkum edilməsi Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndinə ziddir, xüsusilə ona görə ki, daxili məhkəmələrin həmin cinayətə verdikləri geniş şərhin Almaniya hüququnda və ya ümumi beynəlxalq hüquqda əsası yoxdur.

4. 7 iyul 2005-ci ildə Məhkəmə ərizə barədə hökumətə məlumat verməyi qərara almışdır. 2 oktyabr 2006-cı ildə Məhkəmə qərara alınmışdır ki, Konvensiyanın 29-cu maddəsinin 3-cü bəndi və Məhkəmə Reqlamentinin 54A Qaydasının 3-cü bəndinə əsasən, ərizəyə mahiyyəti üzrə baxılması onun qəbuledilənliyinə baxılması ilə eyni vaxtda həyata keçirilsin.

5. Bosniya və Herseqovina hökuməti dinləmələrdə iştirak etmək hüququ (Konvensiyanın 36-cı maddəsinin 1-ci bəndi və 44-cü Qayda) haqqında məlumatlandırılsa da, bu hüquqdan istifadə etmək arzusunda olduğunu ifadə etməmişdir.

# FAKTLAR

## I. İŞİN HALLARI

6. Ərizəçi 1946-cı ildə anadan olub. Ərizəni təqdim edən zaman o, Almaniyanın Boçum (Bochum) şəhərində həbsdə idi.

### *1. İşin tarixçəsi*

7. 1969-cu ildə əslən serb mənşəli Bosniya və Herseqovina vətəndaşı olan ərizəçi Almaniya ərazisinə daxil olmuşdur və 1992-ci ilin əvvəlinə qədər orada qanuni əsaslarla yaşamışdır. Sonra o, doğulduğu Bosniyanın Doboy (Doboj) şəhərinin bir hissəsi olan Kostaynicaya (Kostajnica) geri dönmüşdür.

8. 16 dekabr 1995-ci il tarixində ərizəçi Almaniya ərazisinə daxil olarkən həbs edilmişdir və soyqırımı cinayətini törətməkdə şübhəli olması səbəbi ilə müvəqqəti təcridxanaya yerləşdirilmişdir.

### *2. Düsseldorf Apelyasiya məhkəməsi tərəfindən işə baxılması*

9. 28 fevral 1997-ci il tarixində Doboy rayonunda ərizəçinin 1992-ci ilin may-sentyabr aylarında soyqırımı cinayətinin törədilməsi ittihamı ilə aparılan məhkəmə işi birinci instansiya məhkəməsi kimi çıxış edən Düsseldorf apelyasiya məhkəməsi (*Oberlandesgericht*) tərəfindən açılmışdır.

10. İşin icraatı zamanı Apelyasiya Məhkəməsi ittiham tərəfinin xaricdən dəvət etdiyi altı şahidin ifadələrini dinləmişdir.

11. 18 iyun 1997-ci il tarixində ərizəçi Apelyasiya Məhkəməsinə vəsatətlə müraciət edərək Kostaynicadan səkkiz şahidi dəvət edib onların ifadələrinin dinlənilməsini xahiş etmişdir ki, onun 14 may – 15 avqust 1992-ci il tarixlərində Doboyda müvəqqəti təcridxanada saxlandığı sübuta yetirilsin və beləliklə də ittiham edildiyi cinayəti törətmədiyini təsdiqləsin. 10 iyul 1997-ci il tarixində ərizəçi öz ifadələrini təsdiqləmək üçün Kostaynicadan daha 17 şahidin çağırılmasını xahiş etmişdir.

12. 18 avqust 1997-ci tarixində Apelyasiya Məhkəməsi ərizəçinin bu şahidləri çağırmaq xahişini rədd edir. Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndinin ikinci cümləsinə əsaslanaraq (bax: aşağıda 39-cü bənd) o, bu şahidlərin ifadələrinin sübut kimi az dəyərli olduğu qənaətinə

gəlmişdir. Bu şahidlərin yeddisi yazılı ifadələr təqdim etmiş və bu ifadələr məhkəmədə artıq oxunmuşdu. Onlardan yalnız biri ərizəçiyə həbsxanada baş çəkdiyini iddia edirdi. Artıq alınmış ifadələri nəzərə alaraq, Məhkəmə ərizəçinin sadaladığı şahid ifadələrinin şəxsən dinləndiyi təqdirdə, məhkəmənin sübutu qiymətləndirməsinə təsir göstərə biləcəyinin mümkünlüyünü istisna edə bilərdi. Məhkəmə qeyd etdi ki, ərizəçi tərəfindən törətdiyi ittiham edilən cinayətin qurbanı olmayan iki jurnalist də daxil olmaqla, məhkəmədə dindirilən iyirmidən çox şahid ərizəçinin həbsdə olduğu iddia etdiyi müddət ərzində onu həbsxanadan kənarda müxtəlif yerlərdə gördüyünü bildirmişdir. Ərizəçinin Doboyda həbsxanada olma müddətinin nə zaman başlayıb, nə zaman sona çatmasına dair təqdim etdiyi sənədlər fərqli nəticəyə gəlməyə gətirib çıxarmadı, çünki həmin sənədlər ərizəçinin yaxından tanıdığı bir şəxs tərəfindən imzalanmışdı.

13. 8 sentyabr 1997-ci il tarixində ərizəçi onun 1992-ci il 14 may – 15 avqust tarixlərində həbsdə olduğunu sübuta yetirmək üçün Doboydan üç şahidin dəvət edilməsini məhkəmədən xahiş etdi. O, həmçinin xahiş etdi ki, Qrabskada törədilən cinayət hadisəsinin yerinə (*Augenscheinseinnahme*) baxış keçirilsin və ya alternativ olaraq həmin yerin topoqrafik xəritəsi çəkilsin ki, onun Qrabskada törətdiyi iddia edilən əməllər haqqında şahid ifadələrinin həqiqətə uyğun olmadığı sübuta yetirilsin.

14. 12 sentyabr 1997-ci il tarixində Apelyasiya Məhkəməsi ərizəçinin vəsatətini rədd etdi. Adı çəkilən üç şahidin məhkəməyə çağırılmasına imtinaya gəldikdə, məhkəmə yenə də Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndinə əsaslanaraq bu şahidlərin ifadələrinin çox az sübut dəyərinə malik olması qənaətinə gəldi. Digər şahid ifadələrinə əsaslanaraq məhkəmə ərizəçinin müzakirə edilən müddət ərzində həbsdə olmadığı nəticəsinə gəlmişdir. Məhkəmə həmçinin cinayətin törədildiyi yerə baxışın və ya topoqrafik xəritənin çəkilməsinin Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 3-cü bəndinə əsasən (bax: aşağıda bənd 38) əldə olunması mümkün olmayan sübut (*unerreichbare Beweismittel*) olduğu qənaətinə gəlmişdir və bu səbəbdən onu qəbul etməmişdir.

15. 26 sentyabr 1997-ci il tarixli qərarında Düsseldorf Apelyasiya Məhkəməsi soyqırımının on bir epizodu üzrə (Cinayət Məcəlləsinin 220a maddəsinin 1 və 3-cü bəndləri, bax: aşağıda bənd 34) və bir iş üzrə iyirmi iki nəfərin öldürülməsi, ikinci iş üzrə yeddi nəfərin öldürülməsi və üçüncü iş üzrə bir nəfərin öldürülməsində ərizəçinin təqsirli olduğunu bildirdi. Yerdə qalan işlər üzrə o, bir neçə epizod üzrə təhlükəli hücum və azadlıqdan məhrum etmə cinayətləri üzrə təqsirli bildi. Məhkəmə ərizəçini ömürlük həbs cəzasına məhkum etdi və onun təqsirinin xüsusilə ağır olduğunu qeyd etdi (bax: aşağıda bənd 37).

16. Məhkəmə ərizəçinin hərbiləşdirilmiş qrup yaratdığını və bu qrupun köməyi ilə Bosniyalı serb siyasi liderlərinin və serb hərbçilərinin əmrlərini yerinə yetirərək Doboy rayonunda etnik təmizləmələrdə iştirak etdiyini müəyyən etdi. O, 1992-ci ilin may ayının əvvəllərində və iyun ayında

Bosniyanın üç kəndinin müsəlman olan kişi əhalisinə qarşı həyata keçirilən tutulmalarda, həbslərdə, təhqirlərdə və pis rəftarda iştirak etmiş və bu kəndlərin bir neçə sakinini qətlə yetirmiş və konkret olaraq Qrabska kəndinin qadın, əlil və yaşlılar daxil olmaqla iyirmi iki nəfərini 1992-ci ilin iyun ayında güllələmişdir. Bundan sonra ərizəçi rəhbərlik etdiyi hərbiləşdirilmiş qrupla birlikdə təxminən qırxa yaxın kişini öz kəndlərindən çıxarıb onlara qarşı pis rəftar edilməsi və altısının güllələnməsinə dair əmr vermişdir. Yaralanmış yeddinci şəxs isə altı güllələnmiş şəxsin cəsədləri ilə birlikdə yandırılmış və ölmüşdür. 1992-ci ilin sentyabr ayında ərizəçi Doboy həbsxanasında pis rəftarın və insanı qətlə yetirmənin yeni metodunu nümayiş etdirmək məqsədi ilə əsgərlər tərəfindən pis rəftara məruz qalmış dustağı taxta dəyənəklə öldürmüşdür.

17. Məhkəmə qeyd etmişdir ki, onun bu işə baxmağa dair səlahiyyəti Cinayət Məcəlləsinin 6.1-ci maddəsi ilə nəzərdə tutulmuşdur (bax: aşağıda 34-cü bənd). Cinayət təqibinin Almaniyada aparılması üçün qanuni əsas var idi, çünki bu Bosniya və Hersoqovinada Almaniyanın hərbi və humanitar missiyalarına uyğun idi və digər tərəfdən ərizəçi iyirmi ildən artıq idi ki, Almaniyada yaşayırdı və elə orada da həbs edilmişdi. Bununla yanaşı, beynəlxalq ümumi (publik) hüquq üzrə ekspertin rəyi ilə razılaşaraq məhkəmə Almaniya məhkəmələrinin beynəlxalq ümumi (publik) hüquqla bu işə baxmasına görə heç bir qadağanın olmadığını müəyyən etmişdir. Xarici vətəndaşın digər xarici vətəndaşa qarşı Almaniya hüdudlarından kənarda törətdiyi soyqırımı əməllərinə görə işə baxmağa Almaniya məhkəmələrinin yurisdiksiyası nə 1948-ci il Soyqırımı cinayətinin qarşısını alınması və cəzalandırılması haqqında Konvensiyanın 6-cı maddəsi (Soyqırımı Konvensiyası), nə də 1993-cü il keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Məhkəməsi Statutunun 9-cu maddəsi ilə (YBCT Statutu) (bax: aşağıda 48-49-cu bəndlər) istisna edilir. Məhkəmə hesab etdi ki, bu mövqe keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Məhkəməsinin (YBCT) ərizəçinin təqibi ilə məşğul olmaq istəmədiyini bildirməsi ilə də təsdiqlənirdi.

18. Bundan başqa, məhkəmə müəyyən etdi ki, ərizəçi Cinayət Məcəlləsinin 200a maddəsinin mənasına uyğun olan soyqırımıı cinayətini törətmək niyyəti ilə hərəkət etmişdir. Bir neçə hüquqşünas-alimin ifadə etdiyi fikirlərə istinad edərək məhkəmə qeyd etdi ki, Cinayət Məcəlləsinin 220a maddəsinin mənasına uyğun olaraq, "qrupun məhv edilməsi" ifadəsi sosial vahid kimi fərqli cəhətlərə və özünəməxsusluğa, eləcə də birgə olma hissinə malik olan qrupun məhv edilməsi mənasını daşıyır (("*Zerstörung der Gruppe als sozialer Einheit in ihrer Besonderheit und Eigenart und ihrem Zusammengehörigkeitsgefühl*"); bioloji-fiziki məhv etmə zəruri deyildi. O, belə qənaətə gəlmişdir ki, ərizəçi Bosniyanın şimalında və ya ən azı Doboy rayonunda müsəlmanlar qrupunu məhv etmək niyyəti ilə hərəkət etmişdir.

*3. Federal Ədliyyə Məhkəməsi tərəfindən işə baxılması*

19. 30 aprel 1999-cu il tarixdə Federal Ədliyyə Məhkəməsi ərizəçinin hüquqi məsələlərə dair şikayəti üzrə işə baxış keçirmiş və ərizəçini bir soyqırımı və otuz ölüm epizodu üzrə təqsirli bilmişdir. O, ərizəçini ömürlük həbs cəzasına məhkum etmiş və onun təqsirinin xüsusi ilə ağır olduğunu vurğulamışdır.

20. Apelyasiya məhkəməsinin gətirdiyi əsasları təsdiq edərək o, Almaniya cinayət hüququnun hazırkı işdə tətbiq edilə biləcəyini və Cinayət Məcəlləsinin 6.1-ci maddəsi ilə bu işə baxmaq üçün alman məhkəmələrinin səlahiyyətə malik olduğunu müəyyən etmişdir. O, xüsusi olaraq müəyyən etdi ki, sözügedən maddədə təsbit edilən universal yurisdiksiya (*Universalitäts-/Weltrechtsprinzip*) prinsipinə uyğun olaraq, beynəlxalq ümumi hüquqda alman cinayət məhkəmələri tərəfindən ərizəçinin məhkum edilməsini qadağan edən qayda mövcud deyil. O razılaşdı ki, qeyd edilən prinsip Soyqırımı Konvensiyasının 6-cı maddəsində xüsusi olaraq ifadə edilməyib, baxmayaraq ki, Soyqırımı Konvensiyasının əvvəlki layihələrində bu təklif olunmuşdu. Buna baxmayaraq, sözügedən maddə soyqırımı cinayətini törətməkdə ittiham edilən şəxslərin cinayətin törədildiyi dövlətin məhkəmələri tərəfindən deyil, digər dövlətlərin məhkəmələri tərəfindən mühakimə olunmasını da qadağan etmir. Hər hansı digər şərh Soyqırımı Konvensiyasının 1-ci maddəsi ilə soyqırımı cinayətinin qarşısını almaq və cəzalandırmaq kimi Tərəfdaş Dövlətlərin öz üzərinə götürdüyü *erga omnes* öhdəlikləri ilə uyğun olmayacaqdır (bax: aşağıda 48-ci bənd). Soyqırımı Konvensiyasının yuxarıda qeyd edilən şərhi həmçinin YBCT yurisdiksiyasının və bütün digər milli məhkəmələrinin paralel yurisdiksiyasının olmasını nəzərdə tutan YBCT Statutunun 9-cu maddəsinin 1-ci bəndi ilə də təsdiqlənirdi.

21. Bundan başqa Federal Ədliyyə Məhkəməsi müəyyən etmişdir ki, Alman məhkəmələrinin bu işə baxmaq üçün səlahiyyəti həmçinin Cinayət Məcəlləsinin 7-ci maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndinə uyğun olaraq var idi (bax: aşağıda bənd 34).

22. Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndinə əsasən, xaricdən öz seçdiyi şahidləri məhkəməyə çağırmaq müraciətinin Apelyasiya Məhkəməsinin 18 avqust 1997-ci il qərarı ilə rədd edilməsinə dair ərizəçinin şikayətinə Federal Ədliyyə Məhkəməsi baxmamışdır. Lakin o, ərizəçinin müvafiq faktları yetərli təfərrüatlarla əsaslandıra bilmədiyini arqument gətirən və bu səbəbdən şikayətin qəbul edilən olmadığını iddia edən Federal Prokurorun (*Generalbundesanwalt*) təqdimatlarına ümumi istinad etmişdir. Apelyasiya məhkəməsinin 12 sentyabr 1997-ci il tarixli qərarı ilə daha üç şahidin xaricdən çağırılmasından imtina edilməsinə dair ərizəçinin şikayətinə gəldikdə, ərizəçi müvafiq faktları və yetərli əsasları kifayət qədər təfərrüatlarla göstərə bilmədiyi üçün Federal Ədliyyə Məhkəməsi onun şikayətinin qəbul edilməz olduğunu hesab etdi. Məhkəmə daha sonra topoqrafik xəritənin çəkilməsinə dair müraciətin Apelyasiya

Məhkəməsi tərəfindən rədd edilməsinə dair ərizəçinin şikayəti ilə əlaqədar Federal Prokurorun təqdim etdiyi sənədlərə də istinad etdi. Federal Prokurora görə ərizəçinin şikayəti əsassız idi, xüsusilə ona görə ki, artıq Apelyasiya Məhkəməsində sözügedən ərazini əks etdirən video mövcud idi.

23. Federal Ədliyyə Məhkəməsi Apelyasiya Məhkəməsinin gəldiyi bu nəticə ilə razılaşdı ki, ərizəçi Cinayət Məcəlləsinin 220a maddəsinin mənasına uyğun olan soyqırımı cinayətini törətmək niyyətində idi, lakin onun əməllərinin ümumilikdə yalnız bir soyqırımı əməli kimi qiymətləndirilə biləcəyini müəyyən etdi. O, 220a maddəsinin 1-ci bəndinin 4-cü yarımbəndinə (bir qrup daxilində nəsil artırmanın (doğum) qarşısını alınmasına yönələn tədbirlərin görülməsi) və 5-ci yarımbəndinə (bir qrupun uşaqlarının məcburi şəkildə digər qrupa verilməsi) olan ifadəyə istinad edərək öz mövqeyini belə əsaslandırdı ki, soyqırımı sayılması üçün bir qrupu fiziki olaraq məhv etmək niyyətinin olması zəruri deyil, onun sosial vahid kimi məhv edilməsi niyyətinin olması yetərlidir.

### *4. Federal Konstitusiya Məhkəməsi tərəfindən işə baxılması*

24. 12 dekabr 2000-ci ildə Federal Konstitusiya Məhkəməsi ərizəçinin konstitusional şikayətini rədd etmişdir.

25. Konstitusiya Məhkəməsinə əsasən, cinayət məhkəmələri Cinayət Məcəlləsinin 6.1-cı maddəsi ilə Soyqırımı Konvensiyasının 6-cı maddəsini birlikdə götürüb öz yurisdiksiyasını müəyyən edərkən Əsas Qanunun heç bir müddəasını pozmamışlar. Universal yurisdiksiya prinsipi beynəlxalq ümumi hüquqda nəzərdə tutulan müdaxilə etməmək (*Interventionsverbot*) öhdəliyinə riayət etməklə Almaniya ərazisindən kənarda ortaya çıxan işə baxmaq üçün ağlabatan əlaqənin olmasını nəzərdə tutur. Səlahiyyətli məhkəmələrin əsaslandırması, konkret olaraq, Cinayət Məcəlləsinin 6.1-ci maddəsinin Soyqırımı Konvensiyasının 6-cı maddəsi ilə birlikdə götürülərək onlara ərizəçinin işinə baxmaq hüququ verməsi əsassız deyildi. Soyqırımı Konvensiyası universal yurisdiksiya prinsipini aydın şəkildə tənzimləməsə də, nəzərdə tuturdu ki, Tərəfdaş Dövlətlərin soyqırımı törədənləri təqib etmək öhdəliyinə malik olmasalar da, bunu etmək səlahiyyətinə malikdirlər. Əslində soyqırımı universal yurisdiksiyanın tətbiq edildiyi klassik sahələrdəndir. Cinayət məhkəmələrinin əsaslandırması Bosniya və Hersoqovinanın fərdi və ərazi suverenliyinə müdaxilə etməmişdir, çünki həmin dövlət açıq şəkildə ərizəçinin ekstradisiya edilməsi üçün müraciət etməkdən çəkinmişdir.

26. İcraata qəbul edilmiş konstitusiya şikayəti üzrə işə konstitusiyaya uyğunluğun bütün prizmalarından baxmaq səlahiyyətinə malik olduğunu vurğulayaraq Federal Konstitusiya Məhkəməsi müəyyən etdi ki, ərizəçinin Əsas Qanun ilə təmin edilən ədalətli mühakimə hüququ pozulmamışdır. Şübhəsiz, Cinayət Prosessual Məcəlləsinin 224-cü maddəsinin 3 və 5-ci bəndləri konstitusiyaya uyğun olmuşdur. Qanunverici orqanın müəyyən cinayət əməlləri üçün konkret prosedur qaydaları müəyyən etmək öhdəliyi

olmamışdır. Ədalətli mühakimə hüququ ərizəçiyə xaricdən gəlməli olan şahidlərin çağırılması da daxil olmaqla bəzi sübutların götürülməsi hüququnu vermir.

27. Cinayət Məcəlləsinin 220a maddəsinin şərhinə gəldikdə, Federal Konstitusiya Məhkəməsi müəyyən etdi ki, Əsas Qanunun 103-cü maddəsinin 2-ci bəndi ilə təmin edilən cinayət qanununun geriyə qüvvəsinin olmaması prinsipi pozulmayıb. O qeyd etdi ki, Apelyasiya Məhkəməsi və Federal Ədliyyə Məhkəməsinin sözügedən maddədə "məhv etmək niyyəti" anlayışının izahı qabaqcadan bilinən idi. Bundan başqa, bu şərh müvafiq məhkəmələr, müxtəlif alimlər və BMT təcrübəsində, misal üçün, Baş Assambleyasının 47/121 saylı Qətnaməsində istifadə edilən (bax: aşağıda bənd 41) beynəlxalq ümumi hüquqda soyqırımının qadağan olunması şərhi ilə uyğun idi və Cinayət Məcəlləsinin 220a maddəsi məhz bu baxımdan izah edilirdi.

### 5. *İcraatın yenidən açılması*

28. 3 iyul 2002-ci ildə Düsseldorf Apelyasiya Məhkəməsi ərizəçinin məhkəmə işinin yenidən açılması xahişini qəbuledilməz elan etdi. Apelyasiya Məhkəməsinin dinlədiyi şahidlərdən birinin, hansı ki, ərizəçinin Qrabskada iyirmi iki nəfərin qətlə yetirildiyini gözü ilə gördüyünü iddia edən yeganə insan idi, yalan ifadə verməkdə şübhəli bilinməsi məhkəmə işinin yenidən açılması üçün əsas deyildi. Hətta bu şahidin ərizəçiyə qarşı ifadələri uydurma olduğunu ehtimal etsək, ərizəçi yenə də soyqırımıı və səkkiz ölüm üzrə ömürlük həbs cəzasına məhkum olunacaqdı.

29. 20 dekabr 2002-ci il tarixində (qərar 28 yanvar 2003-cü ildə qüvvəyə minib) Federal Ədliyyə Məhkəməsi belə qərara gəldi ki, ərizəçinin məhkəmə işini yenidən açmağa dair vəsatəti yalnız Qrabskada iyirmi iki nəfərin öldürülməsi hissəsində qəbul edilə bilər. Lakin o qeyd etdi ki, hətta ərizəçinin iyirmi iki ölüm epizodu üzrə məhkum edilməsinin qüvvədə saxlanılmadığını ehtimal etsək belə, ərizəçi təqsirinin xüsusi ilə ağır olmasını da nəzərə alaraq, soyqırımı və səkkiz adam öldürməyə görə ömürlük cəzası yenə də üstünlük təşkil edərdi.

30. 28 fevral 2003-cü ildə konstitusional şikayətində ərizəçi məhkəmə işinin yenidən açılmasına dair Düsseldorf Apelyasiya Məhkəməsinin və Federal Ədliyyə Məhkəməsinin qərarlarının onun Əsas Qanunla təmin edilən azadlıq hüququnu pozduğunu iddia edirdi. O, arqument gətirmişdi ki, onlar məhkəmə işinin yenidən açılmasına dair icraatda ərizəçinin təqsirinin xüsusi ilə ağır olması məsələsinə yenidən baxmalı olmadıqlarına dair gəldikləri qənaətdə yanılmışdılar.

31. 22 aprel 2003-cü ildə Federal Konstitusiya Məhkəməsi ərizəçinin konstitusional şikayətini rədd etdi.

32. 21 iyun 2004-cü ildə Düsseldorf Apelyasiya Məhkəməsi ərizəçinin Qrabskada iyirmi iki nəfərin güllələnməsi üzrə məhkəmə işinin yenidən açılması qərarına gəlmişdir. O, müəyyən etmişdir ki, bu ölümlərin hal şahidi

olduğu güman edilən yeganə şəxs bir sıra digər ifadələrdə yalan ifadə verməkdə təqsirli bilinmişdi. Bu səbəbdən o, əvvəllər işə baxan hakimlərin bu şahidin ifadələrinin yanlış olmasını bildiyi təqdirdə ərizəçiyə bəraət verəcəkləri ehtimalını istisna edə bilməzdi.

33. Ərizəçinin məhkəmə işinin yenidən açılmasına dair vəsatəti təmin edildiyindən, Apelyasiya Məhkəməsi işin icraatına xitam vermişdir. O iddia edirdi ki, iyirmi iki nəfəri Qrabskada öldürməkdə yenidən təqsirli bilinsəydi belə, ərizəçi üçün gözlənilən cəza soyqırımı üçün ona təyin edilən məcburi hüquqi qüvvəyə malik olan cəzadan əhəmiyyətli dərəcədə böyük olmayacaqdı. Bu səbəbdən Düsseldorf Apelyasiya Məhkəməsinin 26 sentyabr 1997-ci il tarixli qərarı onun təqsirinin xüsusi ilə ağır olduğuna dair məhkəmənin qənaəti də daxil olmaqla, soyqırımı və səkkiz ölüm işi hissəsində son qərar kimi qüvvədə saxlanılmışdır.

## II. MÜVAFİQ DAXİLİ QANUNVERİCİLİK VƏ BEYNƏLXALQ ÜMUMİ (PUBLİK) HÜQUQ VƏ TƏCRÜBƏ

### *1. Cinayət Məcəlləsi*

34. Sözügedən vaxt kəsiyində qüvvədə olan Cinayət Məcəlləsinin Alman məhkəmələrinin səlahiyyət dairəsinə, soyqırımı cinayətinə və təqsirləndirilən şəxsin təqsirinin ağırlığına dair müvafiq müddəaları aşağıdakılardır:

**Maddə 6**
**Beynəlxalq səviyyədə müdafiə edilən qanuni maraqlara qarşı xaricdə törədilən əməllər**

"Alman cinayət hüququ törədildiyi yerin qanunundan asılı olmayaraq, xaricdə törədilən aşağıdakı əməllərə şamil edilir:

1. Soyqırımı (maddə 220a);

..."

**Maddə 7**
**Digər hallarda xaricdə törədilən əməllərə görə tətbiq edilmə imkanı**

"1. ...

2. Alman cinayət hüququ xaricdə törədilən digər cinayətlərə o halda tətbiq edilir ki, törədildiyi ərazidə əmələ görə cəza nəzərdə tutulsun, yaxud törədildiyi əraziyə cinayət hüququ şamil edilməsin və əgər əməli törədən şəxs

...

(2) əməli törədərkən xarici olsun, Almaniya ərazisində olsun və ekstradisiya haqqında qanunda bu əmələ görə ekstradisiya nəzərdə tutulmasına baxmayaraq, ekstradisiya üçün müraciət etmədiyinə, belə müraciətin rədd edildiyinə və ya icra edilə bilmədiyinə görə ekstradisiya edilməsin. "

**Maddə 220a**
**Soyqırımı**

"1. Hər hansı bir şəxs milli, etnik, irqi və ya dini qrupu bir qrup kimi bütövlükdə və ya qismən məhv etmək məqsədilə aşağıdakı əməllərdən birini törədirsə

(1) həmin qrupun üzvlərinin öldürülməsi,

(2) qrup üzvlərinə ağır bədən xəsarəti və ya psixoloji xətər yetirilməsi,

(3) qrupun bütövlükdə və ya qismən fiziki məhvinə yönəlmiş yaşayış şəraitinin yaradılması,

(4) qrup daxilində doğumların qarşısını almağa yönəlmiş tədbirlərin görülməsi,

(5) bir qrupa mənsub olan uşaqların zorla başqa qrupa verilməsi

ömürlük azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

..."

35. Cinayət Məcəlləsinin 220a maddəsi Alman Cinayət Məcəlləsinə 9 avqust 1955-ci il tarixli Soyqırımı Konvensiyasına Almaniyanın qoşulması haqqında Qanun ilə əlavə edilmişdir və 1955-ci ildə qüvvəyə minmişdir. Cinayət Məcəlləsinin 6.1-ci və 220a maddələri Beynəlxalq Hüquqa qarşı Cinayətlər Məcəlləsinin (*Völkerstrafgesetzbuch*) qüvvəyə minməsi ilə əlaqədar 30 iyun 2002-ci il tarixindən etibarən qüvvədən düşmüşdür. Yeni Məcəllənin 1-ci maddəsinə əsasən, o, soyqırımı kimi beynəlxalq hüquqa qarşı yönəlmiş cinayət əməllərinə, hətta əməlin xaricdə törədildiyi təqdirdə və Almaniya ilə əlaqəli olmadıqda belə, şamil edilir (bax: yeni Məcəllənin 6-cı maddəsi).

36. 220a maddəsi Cinayət Məcəlləsinə daxil edildiyi andan etibarən ərizəçi birinci insandır ki, Alman məhkəmələri tərəfindən soyqırımıı cinayəti üzrə məhkum olunub. 1992-ci ildə ərizəçi əməlləri törədəndə alimlərin çoxu hesab edirdi ki, Cinayət Məcəlləsinin 220a maddəsindəki soyqırımıı anlayışında "qrupu məhv etmək niyyəti" müdafiə olunan qrupun fiziki-bioloji məhvinə yönəlməli olmalıdır (bax: misal üçün, A. Eser in Schönke/Schröder, *Strafgesetzbuch – Kommentar*, 24-cü nəşr, Münxen, 1991, Maddə 220a, 4-5-ci bəndlər, növbəti istinadlarla). Lakin nəzərə çarpan sayda alimlər hesab edirdi ki, qrupu məhv etmək anlayışı öz hərfi mənasında fiziki-bioloji məhvdən daha da genişdir və sosial vahid kimi qrupun məhv edilməsini də özündə ehtiva edir (bax: xüsusən, H.-H. Jescheck, *Die internationale Genocidium-Konvention vom 9. Dezember 1948 und die Lehre vom Völkerstrafrecht*, ZStW 66 (1954), p. 213 və B. Jähnke in *Leipziger Kommentar, Strafgesetzbuch*, 10-cu nəşr, Berlin, Nyu-York, 1989, maddə 220a, 4, 8 və 13-cü bəndlər).

37. Cinayət Məcəlləsinin 57a maddəsinin 1-ci bəndinə uyğun olaraq, ömürlük həbs cəzası yalnız cəzanın on beş ilinin çəkilməsi şərti ilə şərti cəza ilə (probasiya) əvəz edilə bilər və məhkumun təqsirinin xüsusi ilə ağır olması (*besondere Schwere der Schuld*) cəzanın davamlı olaraq icrasına təminat vermir.

*2. Cinayət Prosessual Məcəlləsi*

38. Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 3-cü bəndinə əsasən, sübutun təqdim edilməsinə dair vəsatət yalnız həmin maddə ilə müəyyən edilmiş hallarda rədd edilə bilər. O, digər hallarla yanaşı, sübutun əldə olunmasının mümkün olmaması (*unerreichbar*) əsası ilə də rədd edilə bilər.

39. Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndinin ikinci cümləsi xaricdən çağırılmalı olan şahidin dinlənilməsi üçün vəsatətin rədd edilməsinə dair xüsusi şərtlər nəzərdə tutur. Bu şərtlər Almaniya daxilində çağırıla bilən şahidin ifadələrinin dinlənilməsi üçün verilən vəsatətin rədd edilməsinə qoyulan şərtlərdən daha az sərtdir. Öz diskresion səlahiyyətlərini lazımı qaydada icra edərkən məhkəmənin həqiqəti sübuta yetirmək üçün şahidi dinləməyin zəruri olmadığını hesab etməsi yetərlidir.

*3. Müqayisəli və beynəlxalq ümumi (publik) hüquq və təcrübə*

**(a) Soyqırımıı cinayətinin anlayışı və əhatə dairəsi**

*(i) 1948-ci il Soyqırımının qarşısının alınması və cəzalandırılması haqqında Konvensiya (Soyqırımı Konvensiyası)*

40. Almaniya üçün 22 fevral 1955-ci ildə qüvvəyə minmiş Soyqırımı Konvensiyasının müvafiq müddəalarında qeyd edilir:

**Maddə II**

"Bu Konvensiyada, "soyqırımı" dedikdə, hər hansı milli, etnik, irqi, yaxud dini qrupu tam və ya qismən məhv etmək məqsədilə törədilən aşağıdakı hərəkətlər başa düşülür:

(a) bu cür qrupun üzvlərinin öldürülməsi;

(b) bu cür qrupun üzvlərinə ağır bədən xəsarəti, yaxud psixoloji xətər yetirilməsi;

(c) hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraiti yaradılması;

(d) bu cür qrupda doğumun qarşısını almağa yönəldilmiş tədbirlərin görülməsi;

(e) uşaqların zorla bir qrupdan alınıb başqasına verilməsi."

*(ii) BMT Baş Assambleyasının Qətnaməsi*

41. BMT-nin Baş Assambleyası 1992-ci ildə Bosniya və Herseqovinadakı vəziyyətə dair 18 dekabr 1992-ci il tarixli 47/121 (no. A/RES/47/121) saylı Qətnaməsində qeyd etmişdir:

"Bosniya və Herseqovina Respublikasında güc tətbiq edərək daha çox ərazinin əldə edilməsi üçün serb və makedoniyalıların qüvvələrinin insan haqlarının kobud və mütəmadi pozulması halı ilə səciyyələnən artmaqda olan aqressiv hərəkətləri, öz evlərindən müdafiəsiz mülki əhalinin kütləvi şəkildə qovulması ilə nəticələnən qaçqın kütləsi və serb və makedoniyalıların nəzarət etdiyi ərazilərdə həbs düşərgələrinin və azadlıqdan məhrum etmə mərkəzlərinin, soyqırımın forması olan çirkin "etnik

təmizləmə" siyasətini təqib etmə simasında vəziyyətin ağırlaşmasından artıq dərəcədə narahatçılıq keçirərək, ..."

*(iii) Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Məhkəməsinin presedent hüququ*

42. Prokuror Krstişe qarşı işdə *(Prosecutor v. Krstić)*, IT-98-33-T, 2 avqust 2001-ci ilin qərarında 577-80 bəndlərində keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Məhkəməsinin (YBCM) Məhkəmə Palatası Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyasının və Federal Konstitusiya Məhkəməsinin hazırkı iş üzrə 12 dekabr 2000-ci il tarixli qərarında verilən "məhv etmək niyyəti" ifadəsinin geniş şərhindən açıq şəkildə uzaqlaşmışdır və Soyqırımı Konvensiyası barədə aşağıdakıları müəyyən etmişdir:

"577. Bir çox yeni bəyannamələr və qərarlar "məhv etmək niyyəti" ifadəsini ... qrupun məhv edilməsində mədəni və digər qeyri-fiziki formalardan istifadə edən əməllərə aid sübutları əhatə edən anlayış kimi şərh ediblər.

578. 1992-ci ildə BMT-nin Baş Assambleyası etnik təmizləməni soyqırımın forması adlandırmışdır. ...

579. Almaniyanın Federal Konstitusiya Məhkəməsi 2000-ci ilin dekabr ayında qeyd etmişdir ki,

soyqırımının qanunda olan anlayışı hüquqi müdafiənin fərdüstü obyekti, yəni qrupun *sosial* mövcudluğunu ... qrupu məhv etmək niyyəti anlayışlarını... müdafiə edir və fiziki və bioloji məhvdən kənara çıxır... Bu səbəbdən qanunun mətni cinayətkarın niyyətinin qrupun ən azı xeyli sayda üzvünü fiziki olaraq məhv etmək olması kimi şərhini məcburi etmir. ...

580. Məhkəmə Palatası Konvensiyanın şərhini *nullum crimen sine lege* prinsipinə uyğun şəkildə verməli olduğunu bilir. Bu səbəbdən o, son dəyişikliklərə baxmayaraq, beynəlxalq hüququn soyqırımı cinayəti anlayışının qrupun tam və ya qismən olaraq fiziki və bioloji məhvinə yönələn əməllər ilə məhdudlaşdırdığını etiraf edir. Beləliklə, insan qrupunun yalnız onu digər icma üzvlərindən fərqləndirən mədəni və ya sosioloji xüsusiyyətlərinə hücum edərək bu elementləri məhv etmək məqsədi güdən kampaniya soyqırımı cinayətinin anlayışı ilə əhatə olunmayacaq. Lakin Məhkəmə Palatası qeyd edir ki, fiziki və ya bioloji məhv olan yerdə adətən hədəfə alınmış qrupun mədəni və dini mülkiyyətinə və simvollarına da paralel hücumlar olur və bu hücumlar haqlı olaraq bir qrupu fiziki olaraq məhv etmək niyyətinin sübutu kimi qiymətləndirilə bilər."

43. Məhkəmə Palatasının qərarı bu hissədə YBCM-nin Apelyasiya Palatasının IT-98-33-A saylı 19 aprel 2004-cü il tarixli qərarı ilə qüvvədə saxlanılmışdır. Bu qərarda deyilir:

"25. Soyqırımı Konvensiyası və ümumilikdə beynəlxalq hüquq insan qrupunun yalnız fiziki və ya bioloji məhv edilməsini qadağa edir. ... Məhkəmə Palatası bu məhdudiyyəti açıq şəkildə qəbul etdi və hər hansı geniş anlayışdan boyun qaçırdı. ..."

33. ... Uşaqların zorla bir qrupdan alınıb başqasına verilməsinin özü-özlüyündə soyqırımı əməli olmaması faktı Məhkəmə Palatasına mane olmur ki, VRS Əsas Heyətinin (VRS Main Staff) üzvlərinin niyyətlərinin sübutu kimi ona istinad etsin. Soyqırımı niyyətinin olması qənaətinə digər faktlarla yanaşı, "eyni qrupa qarşı

sistematik olaraq yönəlmiş digər cinayətkar əməllər"in sübutuna əsaslanaraq gəlmək olar."

44. Eyni ilə müsəlman əhalisini kənddən qovmaq məqsədi ilə 116 müsəlmanın öldürülməsi ilə əlaqədar olan Prokuror Kupreşkiç və Digərlərinə qarşı (*Prosecutor v. Kupreškić and Others*) işində (IT-95-16-T saylı 14 yanvar 2000-ci il tarixli qərar, 751-ci bənd) YBCM müəyyən etmişdir ki:

> "Təqib bəşəriyyət əleyhinə ən çirkin cinayət olan soyqırımı cinayətindən yalnız bir addım aralıdadır; təqib xarakterli niyyət qrupu və ya onun üzvlərini fiziki məhv etmək məqsədi kimi ən yüksək həddə qədər çatdırılır. Soyqırımı cinayətində cinayətin niyyəti qrupu və ya onun üzvlərini məhv etməkdir; təqibdə isə cinayət niyyəti qrupa və ya üzvlərə qarşı onların əsas insan haqlarının kobud və sistematik şəkildə pozulması vasitəsi ilə zor gücünə ayrı-seçkilik etməkdir. Hazırkı işdə İttiham tərəfinə əsasən, – ki, bununla da Məhkəmə Palatası razılaşır – müsəlman sakinlərinin öldürülməsi müsəlman qrupunu bir qrup kimi məhv etmək deyil, əsasən qrupu kənddən qovmaq məqsədi daşıyırdı. Bu səbəbdən burada soyqırımı deyil, təqib üzrə iş aparılmalıdır."

*(iv) Beynəlxalq Ədalət Məhkəməsinin presedent hüququ*

45. *Bosniya və Herseqovina Serbiya və Monteneqroya qarşı* məhkəmə işi üzrə ("Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında Konvensiyanın tətbiqinə dair işi") 26 fevral 2007-ci il tarixli qərarında Beynəlxalq Ədalət Məhkəməsi (BƏM) "niyyət və 'etnik təmizləmə'" başlığı altında aşağıdakıları müəyyən etmişdir (§ 190):

> " İşin əsas mövzusu olan Bosniya və Herseqovinadakı hadisələrə dair "etnik təmizləmə" termini tez-tez istifadə edilirdi... Baş Assambleyanın 47/121 saylı qətnaməsinin preambulası Bosniya və Herseqovinada həyata keçirilən "soyqırımın forması olan "etnik təmizləmə" kimi çirkin siyasət" ifadəsini işlətmişdir. Bu, [yəni etnik təmizləmə] Konvensiyaya uyğun mənada yalnız o halda soyqırımın forması ola bilər ki, Konvensiyanın 2-ci maddəsinə uyğun olsun və ya bu maddə ilə qadağan edilən əməllərə aid olsun. Nə bir siyasət kimi ərazini "etnik olaraq homogen" etmək niyyəti, nə də bu siyasəti icra etmək üçün həyata keçirilə bilən əməliyyatlar özü-özlüyündə soyqırımı adlandırıla bilməz: soyqırımı xarakterizə edən niyyət konkret qrupu "tam və ya qismən məhv etmək"dir, qrupun üzvlərini güc tətbiq etməklə olsa belə deportasiya etmək və ya yerlərini dəyişmək heçdə həmin qrupun məhvinə bərabər deyil, nə də ki, belə məhv etmə yer dəyişmənin avtomatik nəticəsi deyil. Bu o demək deyil ki, "etnik təmizləmə" kimi təsvir edilən əməllər heç zaman soyqırımı cinayəti sayıla bilməz. Əgər bu əməllər Konvensiyanın 2-ci maddəsinin (c) bəndinə zidd olaraq, "hər hansı qrup üçün qəsdən onun tam, yaxud qismən fiziki məhvini nəzərdə tutan həyat şəraitinin yaradılması" kimi xarakterizə oluna bilərsə, bu şərtlə ki, həmin əməl lazım olan xüsusi niyyətlə (*dolus specialis*), yəni onun ərazidən çıxarılmasından fərli olaraq qrupun məhvi məqsədi ilə həyata keçirilsin, bu təqdirdə belə əməl soyqırımı cinayəti sayıla bilər. YBCM-in müşahidə etdiyi kimi, "soyqırımı xarakterli siyasət ilə "etnik təmizləmə" kimi tanınan siyasət arasında aşkar oxşarlıqlar mövcud" olmasına baxmayaraq (IT-98-33-T saylı Krstiç işi *(Krstić)*, Məhkəmə Palatası Qərarı, 2 avqust 2001-ci il, 562-ci bənd), yenə də "fiziki məhv və qrupun

sadəcə parçalanması (birliyinin dağıdılması) arasında aydın fərq qoyulmalıdır. Qrupun və ya onun bir hissəsinin çıxarılması özü-özlüyündə cinayətin soyqırımı adlandırılması üçün yetərli deyil.”... ”

*(v) Konvensiyaya üzv olan digər dövlətlərin interpretasiyası*

46. Məhkəmədə olan məlumatlara əsasən, Konvensiyaya üzv olan digər dövlətlərdə soyqırımı cinayətinin milli səviyyədə təqibinə dair cəmi bir neçə iş olub. Elə bir iş yoxdur ki, bu ölkələrin məhkəmələri cinayətkarın soyqırımı cinayətində təqsirli bilinməsi üçün qrupun məhvinin hər hansı növünü törətmək niyyətində olduğunu müəyyən etsin, yəni “məhv etmək niyyəti” anlayışının qrupun yalnız fiziki və ya bioloji məhvini deyil, eyni zamanda sosial vahid kimi də məhvini əhatə etməsinə dair iş yoxdur.

*(vi) Hüquq alimlərinin interpretasiyası*

47. Bir çox alimlər serb qüvvələrinin Bosniya və Hersoqovinada müsəlmanları və xorvatları öz evlərindən qovmaq məqsədilə apardıqları etnik təmizləməni soyqırımı hesab etmir (bax: digərləri ilə yanaşı, Villiam Şabas, *Genocide in International Law: The Crime of Crimes,* Cambridge 2000, səh.199 və sonrakı səhifələr). Lakin bu əməlləri soyqırımı hesab edən alimlər də kifayət qədər çoxdur (bax: digərləri ilə yanaşı, M. Lippman, *Genocide: The Crime of the Century,* HOUJİL 23 (2001), səh. 526 və H.Hübner, *Das Verbrechen des Völkermordes im internationalen und nationalen Recht*, Frankfurt am Main 2004, səh. 208-17; G. Verle, *Völkerstrafrecht*, birinci nəşr, Tübingen 2003, səh. 205, 218 və sonrakı səhifələrdə fərqləndirmə apararaq qeyd edir ki, bu işin hallarından, xüsusən törədilmiş cinayətin miqyasından və niyyətin bir qrupu sosial vahid kimi məhv etmək yoxsa sadəcə qovmaq olmasından ibarət olduğunun sübuta yetirilə bilməsindən asılıdır).

**(b) Soyqırımı cinayəti ilə bağlı universal yurisdiksiya**

*(i) 1948-ci il Soyqırımı cinayətinin qarşısının alınması və ona görə cəzalandırma haqqında Konvensiya (Soyqırımı Konvensiyası)*

48. Soyqırımı Konvensiyasının müvafiq müddəalarında deyilir:

**Maddə I**

“Razılığa gələn Tərəflər sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, soyqırımın beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edir və onun qarşısını almaq və onun törədilməsinə görə cəzalandırmaq üçün tədbirlər görməyi öhdələrinə götürürlər.”

**Maddə VI**

“Soyqırımında, yaxud 3-cü maddədə sadalanan əməllərdə ittiham olunan şəxslər həmin əməllərin törədildiyi dövlətin ərazisindəki səlahiyyətli məhkəmədə, yaxud yurisdiksiyası bu Konvensiya iştirakçıları tərəfindən qəbul edilmiş beynəlxalq cinayət məhkəməsində mühakimə edilməlidirlər.”

*(ii) 1993-cü il keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Məhkəməsinin Statutu (YBCM-in Statutu)*

49. YBCM-nin Statutunun müvafiq müddəalarında deyilir:

**Maddə 9**
**Paralel yurisdiksiya**

"1. 1 yanvar 1991-ci ildən sonra keçmiş Yuqoslaviyanın ərazisində beynəlxalq humanitar hüququn ciddi pozuntularını törədən şəxsləri mühakimə etmək üçün Beynəlxalq Məhkəmənin və milli məhkəmələrin paralel yurisdiksiyası vardır.

2. Beynəlxalq Məhkəmənin yurisdiksiyası milli məhkəmələrin yurisdiksiyası üzərində üstünlüyə malikdir. Prosesin istənilən mərhələsində Beynəlxalq Məhkəmə milli məhkəmələrdən Beynəlxalq Məhkəmənin hazırkı Statututuna və Prosedur və Sübutlar haqqında Qaydalarına uyğun olaraq iş üzrə icraatı rəsmi şəkildə Beynəlxalq Məhkəmənin səlahiyyətinə verməyi xahiş edə bilər."

*(iii) Keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının presedent hüququ*

50. YBCM-in Apelyasiya Palatası *Prokuror Tadiçə (Prosecutor v. Tadić)* qarşı (IT-94-1 saylı) işində müdafiə tərəfinin verdiyi yurisdiksiyanın olub-olmamasına dair vəsatət üzrə 2 oktyabr 1995-ci ildə çıxardığı qərarında qeyd etmişdir ki, "hal-hazırda beynəlxalq cinayətlər üzrə işlərdə universal yurisdiksiya tanınır" (bənd 62).

51. Oxşar olaraq, YBCM-in Məhkəmə Palatası (IT-95-17/1-T saylı) *Prokuror Furundziyaya qarşı (Prosecutor v. Furundžija)* işinə dair 10 dekabr 1998-ci il tarixli qərarında müəyyən etmişdir ki, baş verdiyi yerdən asılı olmayaraq beynəlxalq cinayətlər hamılıqla pislənilir və hər bir dövlətin belə cinayətlərin müəlliflərini təqib etmək və cəzalandırmaq hüququ vardır. Eyxman *(Eichmann)* işində İsrail Ali Məhkəməsinin ümumi sözlərlə ifadə etdiyi kimi və ABŞ məhkəməsinin baxdığı Demyanuk *(Demjanjuk)* işində təkrarladığı kimi, "sözügedən cinayətlərin universal xarakteri... hər bir dövlətə bu cinayətlərin törədilməsində iştirak edən şəxsləri mühakimə etmək və cəzalandırmaq səlahiyyəti verir" (bənd 156).

*(iv) Milli qanunvericilik və Konvensiyaya üzv olan digər dövlətlərin təcrübəsi*

52. Hökumət tərəfindən təqdim edilən və şikayətçinin etirazına səbəb olmayan material da daxil olmaqla, məhkəməyə daxil olmuş məlumat və sənədlərə əsasən, Konvensiyaya üzv olan bir çox ölkələrin qanunvericiliyində təsbit olunmuş müddəalar soyqırımı cinayətini hazırkı işdə olan bənzər şərtlərlə təqib etmək səlahiyyətini nəzərdə tutur.

53. Konvensiyaya üzv olan bir çox dövlətlərdə soyqırımı cinayətinin təqib edilməsinə beynəlxalq yurisdiksiya prinsipi, yəni Dövlətin ərazisindən kənarda həmin Dövlətin vətəndaşları olmayan şəxslər tərəfindən vətəndaş olmayan şəxslərə qarşı törədilən və Dövlətin öz milli maraqlarına qarşı olmayan, ən azından cavabdehin onun ərazisində olması müəyyən edilərsə, tətbiq edilir (məs, İspaniya, Fransa, Belçika (ən azı 2003-cü ilədək),

Finlandiya, İtaliya, Latviya, Lüksemburq, Niderland (2003-cü ildən etibarən), Rusiya, Slovakiya, Çexiya Respublikası və Macarıstan). Ərizəçinin məhkəmə prosesi davam etdiyi zaman bir çox digər dövlətlər xarici vətəndaşların xaricilərə qarşı xarici ölkədə törətdiyi soyqırımı cinayətinin mühakiməsinin təmsilçilik prinsipinə oxşayan müddəalara uyğun olaraq aparılmasına icazə vermişlər (*stellvertretende Strafrechtspflege* – müqayisə et: Almaniya Cinayət Məcəlləsinin, 7-ci maddəsinin 2-ci bəndinin 2-ci yarımbəndi, yuxarıda 34-cü bənddə), məsələn, Avstriya, Danimarka, Estoniya, Polşa, Portuqaliya, Rumıniya, İsveç və İsveçrə (2000-ci ildən). Soyqırımı cinayəti üçün beynəlxalq yurisdiksiya nəzərdə tutmayan Konvensiya dövlətlərindən, xüsusilə, İngiltərəni qeyd etmək olar.

54. Avstriya, Belçika və Fransa məhkəmələrindən başqa İspaniya məhkəmələri də beynəlxalq yurisdiksiya prinsipinə əsaslanaraq soyqırımı cinayətinə görə məhkəmə işlərinə baxmışlar. İspan *Audencia Nacional* məhkəməsi 5 noyabr 1998-ci il tarixdə *Avqusto Pinoçet* işində çıxardığı qərarda qeyd etmişdir ki, ispan məhkəmələri işə baxmaq səlahiyyətinə malikdir. Qərarda Soyqırımı Konvensiyasının əhatə dairəsi barədə aşağıdakılar qeyd olunur:

> "Konvensiyanın 6-cı maddəsi cinayətin törədildiyi yerin məhkəmə orqanları və ya beynəlxalq məhkəmələrdən başqa digər səlahiyyətli məhkəmə orqanlarının mövcud olmasını istisna etmir. Konvensiyanın bu maddəsinin sözügedən müddəalarda nəzərdə tutulan yurisdiksiyadan başqa yurisdiksiyanın həyata keçirilməsinə məhdudiyyət qoymasını hesab etmək Konvensiyanın ruhuna zidd olardı, çünki bu belə ağır cinayətin törədilməsinə görə cəzasız qalmanın qarşısını alır. Konvensiyaya üzv olan dövlətlərin öz milli yurisdiksiyası üçün bu cinayət üzrə universal yurisdiksiyaya dair razılığa gəlməməsi faktı Konvensiyaya üzv olan dövlət tərəfindən Konvensiyanın özündə qeyd edildiyi kimi bütün dünyanı cəlb edən və beynəlxalq ictimaiyyətə və əslində elə birbaşa bəşəriyyətə birbaşa təsir edən cinayət əməli üzərində yurisdiksiya yaratmağa mane olur. ... Eynilə 1948-ci il Konvensiyasının 6-cı maddəsinin şərtləri də İspaniya kimi öz qanunlarında belə cinayətlərin təqib edilməsi üçün ekstraterritoriallıq müəyyən edən Tərəfdaş Dövlətdə, soyqırımı cinayətinin cəzalandırılması üçün yurisdiksiyanın istisna edilməsinə icazə vermir..." (Beynəlxalq Hüquq Hesabatları, 119-cu cild, səh. 331 və sonrakı səhifələr, səh. 335-36)

# HÜQUQİ MƏSƏLƏLƏR

## I. KONVENSİYANIN 5-Cİ MADDƏSİNİN 1(A) BƏNDİNİN VƏ 6-CI MADDƏNİN 1-Cİ BƏNDİNİN İDDİA EDİLƏN POZUNTUSU

55. Ərizəçi şikayət etmişdir ki, onun Düsseldorf Apelyasiya Məhkəməsi tərəfindən soyqırımı cinayəti üzrə məhkum edilməsi və bu qərarın, onun iddia etdiyi kimi, bu işə baxmaq üçün müvafiq səlahiyyətə malik olmayan Federal Ədliyyə Məhkəməsi və Federal Konstitusiya Məhkəməsi tərəfindən

qüvvədə saxlanması və onun bu qərardan irəli gələn həbsi Konvensiyanın 5-ci maddəsinin 1(a) bəndinin və 6-cı maddənin 1-ci bəndinin pozulmasına bərabər idi. Bu bəndlərin müvafiq hissələrində deyilir:

**Maddə 5**

> “1. Hər kəsin azadlıq və şəxsi toxunulmazlıq hüququ vardır. Heç kəs qanunla müəyyən olunmuş aşağıdakı hallardan və qaydadan başqa, azadlıqdan məhrum edilə bilməz:
>
> (a) səlahiyyətli məhkəmə tərəfindən məhkum olunduqdan sonra şəxsin qanuni həbsə alınması;”

**Maddə 6**

> “1. Hər kəs... ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, qanun əsasında yaradılmış... məhkəmə vasitəsi ilə... ədalətli... araşdırma...hüququna malikdir...”

56. Hökumət tərəfi bu təqdimatı mübahisələndirmişdir.

## A. Qəbuledilənlilik məsələsi haqqında

57. Məhkəmə qeyd edir ki, şikayət Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndi baxımından aşkar əsassız deyil. O, daha sonra qeyd edir ki, şikayət digər əsaslarla da qəbul edilən sayılmaya bilməz. Bu səbəbdən o, qəbul edilən hesab edilməlidir.

## B. Mahiyyət məsələləri

### *1. Tərəflərin təqdimatları*

#### (a) Ərizəçi

58. Ərizəçi qeyd etmişdir ki, beynəlxalq ümumi (public) hüquqda müdaxilə etməmək kimi ümumi qayda mövcuddur və bu qayda, prinsipcə, xarici ölkədə xaricdə yaşayan insan tərəfindən digər ölkə vətəndaşları olan qurbanlara qarşı güman edilən soyqırımı cinayətini törətdiyinə görə Alman məhkəmələrinin onu mühakimə etməsini qadağan edirdi. Onun təqdimatına görə, Alman məhkəmələri də Cinayət Məcəlləsinin 6.1-ci maddəsində nəzərdə tutulan və beynəlxalq cinayət hüququnun universal yurisdiksiya prinsipinə əsaslanan müstəsna yurisdiksiyanı öz üzərlərinə götürməli deyildilər, çünki beynəlxalq səviyyədə bu prinsipə əsaslanan yurisdiksiya soyqırımına münasibətdə tanınmamışdır.

59. Ərizəçi xüsusilə arqument gətirmişdir ki, Soyqırımı Konvensiyasının 6-ci maddəsinə əsasən, yalnız ərazisində əməl törədilən dövlətin məhkəmələrinin və ya beynəlxalq məhkəmənin soyqırımıda ittiham edilən şəxsləri mühakimə etmək səlahiyyəti vardır. Həmin maddə bu səbəbdən beynəlxalq ümumi (publik) hüququn ümumi qaydaları olan dövlətlərin suverenliyi və bərabərliyi, eyni zamanda hüquqlardan sui-istifadə etmənin

qadağan edilməsi kimi prinsiplərdən irəli gələn müdaxilə etməmək öhdəliyini əks etdirirdi. O razılaşırdı ki, beynəlxalq publik hüquqda tanındığı kimi, universal yurisdiksiya prinsipi nəzəri olaraq Soyqırımı Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulan məhkəmədən savayı yerli məhkəmələrə də yurisdiksiyanı həvalə edə bilərdi. Lakin onun fikrincə, bu yurisdiksiya həmin prinsipə uyğun olaraq tətbiq edilir və müdaxilə etməmək vəzifəsi qaydasına istisna təşkil edir; o, nə beynəlxalq müqavilə hüququnda, nə də beynəlxalq ümumi hüququnda soyqırımında ittiham edilən şəxslərin mühakiməsində tanınmır. Buna görə də Alman məhkəmələri əsassız olaraq yurisdiksiyanı öz üzərlərinə götürüblər.

**(b) Hökumət**

60. Hökumətin təqdimatına görə, Alman məhkəmələri ərizəçini məhkum etmək üçün Konvensiyanın 5-ci maddəsinin birinci (a) bəndində nəzərdə tutulan mənada "səlahiyyətli məhkəmə(lər)" və Konvensiyanın 6-cı maddəsinin birinci bəndində ifadə olunan mənada "qanun əsasında yaradılmış məhkəmə(lər)" idi. Alman cinayət hüququ işin faktlarına tətbiq edilə bilən idi, çünki Alman hüququna əsasən Alman məhkəmələri ərizəçinin ittiham edildiyi cinayətlər üzərində yurisdiksiyaya malik idilər. Onların səlahiyyəti Cinayət Məcəlləsinin (o zaman qüvvədə olan versiyasında) 6.1-ci maddəsində nəzərdə tutulmuşdur. Eyni zamanda ərizəçinin ittiham edildiyi cinayətlərin mühakiməsi ilə Almaniya arasında qanuni əlaqə mövcud idi və bu da Almaniya məhkəmələri tərəfindən Cinayət Məcəlləsinin 6.1-ci maddəsindən kənara çıxaraq səlahiyyətə malik olduqlarını müəyyən etmək, bununla da müdaxilə etməmək prinsipinə riayət etmək üçün zəruri bilinmişdir. Ərizəçi illər boyu Almaniyada yaşamışdı, hələ də orada yaşayan şəxs kimi dövlət qurumunda qeydiyyatda idi və Almaniya ərazisində həbs edilmişdi. Bundan başqa, Almaniya Bosniya və Herseqovinada hərbi və humanitar missiyalarda iştirak etmişdi. Bununla yanaşı, təmsilçilik prinsipini özündə əks etdirən Cinayət Məcəlləsinin 7.2-ci maddəsinin 2-ci bəndinin tələblərinə riayət edilmişdir, belə ki, nə YBCM, nə də Bosniya və Herseqovinada cinayət törədilən yerin cinayət məhkəmələri tərəfindən ərizəçinin ekstradisiyası üçün müraciət edilməmişdir.

61. Hökumət daha sonra qeyd etmişdir ki, alman hüququnun yurisdiksiyaya aid müddəaları beynəlxalq ümumi hüququn prinsiplərinə uyğun idi. Konkret olaraq, Alman məhkəmələrinin inandırıcı şəkildə göstərdiyi kimi Soyqırımı Konvensiyasının 6-cı maddəsi, hansı ki, soyqırımı mühakimə etmək vəzifəsinə dair minimal tələbləri özündə əks etdirir, soyqırımı mühakimə etmək üçün cinayətin törədildiyi ərazinin məhkəməsindən başqa digər dövlətin məhkəməsi tərəfindən də mühakimə edilməsini qadağan etmir.

62. Bununla yanaşı, beynəlxalq ümumi adət hüququnda tanınan universal yurisdiksiya prinsipi bütövlükdə beynəlxalq ictimaiyyətin maraqlarına qarşı

yönələn və harada və kim tərəfindən cinayətlərin törədilməsindən asılı olmayaraq, soyqırımı kimi beynəlxalq hüquq əleyhinə cinayət üzərində yurisdiksiya yaratmağa bütün dövlətlərə icazə verir. Eynilə Cinayət Məcəlləsinin 7.2-ci maddəsinin 2-ci bəndində təsbit edilən təmsilçilik prinsipinə əsaslanan yurisdiksiya beynəlxalq ümumi hüquqa zidd deyildir. Bu səbəbdən Alman məhkəmələrinin ərizəçinin işinə baxmaq səlahiyyəti var idi.

63. Hökumət qeyd etdi ki, Konvensiyaya üzv olan digər çoxsaylı Tərəfdaş Dövlətlərinin qanunvericiliyi və məhkəmə təcrübəsi və eyni zamanda YBCM-in presedent hüququ da soyqırımının universal yurisdiksiya prinsipinə uyğun şəkildə mühakimə edilməsinə aydın şəkildə icazə verir.

*2. Məhkəmənin qiymətləndirməsi*

**(a) Müvafiq prinsiplər**

64. Məhkəmə hesab edir ki, hazırkı iş əsasən Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi ilə ərizəçinin işinin "qanun əsasında yaradılmış məhkəmə" tərəfindən baxılıb-baxılmaması başlığı altında araşdırılmalıdır. O, bu ifadənin qanunun aliliyi prinsipini əks etdirdiyini yenidən xatırladır və bu prinsip Konvensiya və onun Protokolları ilə yaradılan müdafiə sisteminin ayrılmaz hissəsidir. 6-cı maddənin 1-ci bəndində istifadə olunan mənasında "qanun", konkret olaraq, məhkəmə orqanlarının yaradılması və onların səlahiyyətləri sahəsində qanunvericiliyi əhatə edir (bax: *digərləri ilə yanaşı*, Lavents Latviyaya qarşı işi (*Lavents v. Latvia)*, 58442/00 saylı ərizə, 114-cü bənd, 28 noyabr 2002-ci il). Beləliklə, məhkəmənin ölkədaxili qanunun müddəalarına uyğun olaraq cavabdehi mühakimə etmək yurisdiksiyası yoxdursa, o, 6-cı maddənin 1-ci bəndində göstərilən mənada "qanun əsasında yaradılmış məhkəmə" deyil (Koem və digərləri Belçikaya qarşı işi (*Coëme and Others v. Belgium*) ilə müqayisə et, 32492/96, 32547/96, 32548/96, 33209/96 və 33210/96 saylı ərizələr, 99 və 107-08-ci bəndlər, AİHM 2000-VII).

65. Bundan başqa məhkəmə təkrarlayır ki, prinsip etibarı ilə, məhkəmə orqanlarının yaradılması və səlahiyyətlərinə dair qeyd edilən ölkədaxili hüquq müddəalarının məhkəmə tərəfindən pozulması 6-cı maddənin 1-ci bəndinin pozuntusuna gətirib çıxarır. Bu səbəbdən Məhkəmənin səlahiyyəti var ki, bu baxımdan milli qanunun müddəalarına riayət edilib-edilmədiyini araşdırsın. Lakin ölkədaxili qanunların müddəalarını şərh etmək işi ilə ilk əvvəl yerli məhkəmələrin məşğul olmalı olması kimi ümumi prinsipi nəzərə alaraq, Məhkəmə hesab edir ki, ölkədaxili qanunun kobud pozuntusu olmayana qədər onların şərhini qiymətləndirə bilməz (bax: *mutatis mutandis*, yuxarıda sadalanın Koem və digərləri işi *(Coëme and Others)*, nəticə etibarı ilə 98-ci bənd və yuxarıda sadalanan Lavents işi, 114-cü bənd). Bu baxımdan Məhkəmə həmçinin xatırladır ki, 6-cı maddə

müttəhimə məhkəmənin yurisdiksiyasını seçmək hüququ vermir. Ona görə də Məhkəmənin məqsədi yurisdiksiya yaratmaq üçün səlahiyyətli orqanlarının ağlabatan əsaslarının mövcud olub-olmamasını araşdırmaq ilə məhdudlaşır (bax: digərləri ilə yanaşı, G. İsveçrəyə qarşı işi *(G. v. Switzerland)*, 16875/90 saylı ərizə, Komissiyanın 10 oktyabr 1990-cı il tarixli dərc etdirilməmiş qərarı, (unreported) və Kübli İcveçrəyə qarşı işi *(Kübli v. Switzerland)*, 17495/90 saylı ərizə, Komissiyanın 2 dekabr 1992-ci il tarixli dərc etdirilməmiş qərarı (unreported).

**(b) Bu prinsiplərin hazırkı işə tətbiq edilməsi**

66. Məhkəmə qeyd edir ki, Alman məhkəmələri Cinayət Məcəlləsinin 6-cı maddəsinin 1-ci bəndini həmin məcəllənin 220a maddəsi ilə birlikdə götürülərək (həmin vaxtda qüvvədə olan versiyalarında) öz yurisdiksiyalarını əsaslandırıblar. Bu müddəalar Alman cinayət hüququnun tətbiq edilə bilməsini və buna müvafiq olaraq Alman məhkəmələrinin cavabdehin və qurbanların vətəndaşlığından asılı olmayaraq xaricdə törədilən soyqırımı cinayətində ittiham edilən şəxsləri mühakimə etmək üçün yurisdiksiyaya malik olmasını nəzərdə tuturdu. Beləliklə, milli məhkəmələr yurisdiksiyanı Cinayət Məcəlləsinin müvafiq müddəalarının aydın şəkildə ifadə olunmuş mətninə uyğun olaraq müəyyən etmişdilər.

67. Daxili qanunvericiliyin maddi müddəaları ilə Alman məhkəmələrinin yurisdiksiyaya malik olub-olmaması məsələsinə baxarkən, Məhkəmə daha sonra milli məhkəmələrin ərizəçinin işinə dair yurisdiksiyaya malik olmasına dair qərarlarının Almaniyaya tətbiq olunan beynəlxalq ümumi hüququn müddəalarına uyğun olub-olmamasından əmin olmalıdır. O qeyd edir ki, Cinayət Məcəlləsinin 6-cı maddəsinin 1-ci bəndində nəzərdə tutulan beynəlxalq ümumi hüququn universal yurisdiksiya prinsipi, beynəlxalq ümumi hüququn müdaxilə etməmək vəzifəsinə riayət edərək milli məhkəmələrin yurisdiksiyasını yaratmışdır. Onların fikrincə, universal yurisdiksiya altında onların səlahiyyəti Soyqırımı Konvensiyasının 6-cı maddəsi ilə istisna edilmir, çünki həmin maddə orada sadalanan məhkəmələr üçün soyqırımı cinayətində şübhəli bilinən şəxsləri mühakimə etmək vəzifəsini müəyyən edən maddə kimi başa düşülməlidir və o, digər milli məhkəmələr tərəfindən soyqırımı cinayətinin təqib edilməsini qadağan etmir.

68. Yurisdiksiyaya dair beynəlxalq ümumi hüququn tətbiq edilə bilən qayda və müddəalarına dair yerli məhkəmələr tərəfindən verilən şərhin ağlabatan olub-olmamasını müəyyən edərkən Məhkəmə xüsusi olaraq Soyqırımı Konvensiyasının 6-cı maddəsinin onlar tərəfindən şərhini araşdırmalı idi. O müşahidə edir ki, yerli məhkəmələrin də qeyd etdiyi kimi (bax: xüsusi ilə yuxarıda 20-ci bənd), Soyqırımı Konvensiyasına qoşulmuş Müqavilə Tərəfləri, Konvensiyanın əvvəlki layihələrinə eyni məsələylə bağlı verilən təkliflərə baxmayaraq, bu maddədə bütün Tərəfdaş Dövlətlərin yerli məhkəmələrin soyqırımı cinayəti üzərində universal yurisdiksiya malik

olma prinsipini kodifikasiya etməyə razılıq verməmişdilər (müqayisə et: yuxarıdakı 20 və 54-cü bəndlər). Lakin Soyqırımı Konvensiyasının 1-ci maddəsinə uyğun olaraq, Tərəfdaş Dövlətlərin soyqırımıı cinayətinin qarşısını almaq və cəzalandırmaq kimi *erga omnes* öhdəlikləri var və bu cinayətin qadağan olunması *jus cogens* normasının tərkib hissəsini təşkil edir. Bu baxımdan milli məhkəmələrin həmin maddədə konkret olaraq ifadə edilən Soyqırımı Konvensiyasının məqsədlərinin, qanunları ekstraterritoriallıq müəyyən edən dövlətlər tərəfindən soyqırımı cinayətini cəzalandırmaq üçün yurisdiksiyanı istisna etməməsinə dair əsaslandırmaları ağlabatan (və həqiqətən inandırıcı) kimi hesab olunmalıdır. Beləliklə, Soyqırımı Konvensiyasının məqsədinə uyğun olaraq, həmin konvensiyanın 6-cı maddəsinin ağlabatan və birmənalı interpretasiyasını verərək sözügedən Konvensiyanı şərh edərkən hazırlıq sənədlərinə baxmağa ehtiyac yox idi, çünki onlar beynəlxalq ümumi hüququn şərhində yalnız köməkçi rol oynayır (bax: 23 may 1969-cu il tarixli Müqavilələr Hüququ haqqında Vyana Konvensiyasının 31-ci maddəsinin 1-ci bəndi və 32-ci maddəsi).

69. Bu baxımdan Məhkəmə müşahidə edir ki, Alman məhkəmələrinin Soyqırımı Konvensiyasının 6-cı maddəsinin həmin Konvensiyanın 1-ci maddəsi baxımından verdiyi şərh və soyqırımı ittihamı ilə ərizəçini mühakimə etmək üçün yurisdiksiya yaratmaları (İnsan haqlarının və əsas hüquqlarının müdafiəsi haqqında) Konvensiyaya üzv olan digər çox saylı Tərəfdaş Dövlətlərin qanunlarında və məhkəmə təcrübəsində, eyni zamanda YBCM-in Statutunda və presedent hüququnda geniş şəkildə öz təsdiqini tapıb. O xüsusi ilə qeyd edir ki, İspaniyanın *Audiencia Nacional* məhkəməsi Soyqırımı Konvensiyasının 6-ci maddəsini eyni ilə Alman məhkəmələri kimi şərh etmişdir (bax: yuxarıda 54-cü bənd). Bundan başqa, YBCM-in Statutunun 9-cu maddəsinin 1-ci bəndi konkret ölkələrin yerli məhkəmələrinə hər hansı bir məhdudiyyət qoymadan YBMC-in və milli məhkəmələrin üst-üstə düşən yurisdiksiyanı nəzərdə tutan Alman məhkəmələrinin mövqeyini təsdiqləyir. Həqiqətən də, soyqırımı cinayəti üçün universal yurisdiksiya prinsipi YBCM tərəfindən açıq şəkildə tanınmışdır (bax: yuxarıda 50 və 51-ci bəndlər) və Konvensiyaya tərəf çıxan çoxsaylı dövlətlər bu prinsipə uyğun olaraq soyqırımı cinayətini təqib etməyə icazə verirlər və ya bunu, ərizəçinin işində olduğu kimi, ən azı əlavə şərtlər, misal üçün, təmsilçilik prinsipi ilə tələb edilən şərtlər mövcud olduqda edirlər (bax: yuxarıda bənd 52-53).

70. Məhkəmə belə nəticə çıxarır ki, beynəlxalq ümumi hüququn müvafiq müddəaları və qaydalarının Alman məhkəmələri tərəfindən şərhi, hansı ki, ona uyğun şəkildə Cinayət Məcəlləsinin müddəaları izah edilməli idi, əsassız deyildi. Ona görə də, onların soyqırımı ittihamı ilə ərizəçini mühakimə etmək üçün öz yurisdiksiyasını yaratmağa ağlabatan əsasları var idi.

71. Beləliklə, ərizəçinin məhkəmə işi Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndində ifadə olunan mənasında qanun əsasında yaradılan məhkəmə

tərəfindən baxılmışdır. Bu səbəbdən həmin müddəanın pozulması baş verməmişdir.

72. 6-cı maddənin 1-ci bəndinə əsasən gəldiyi nəticəni, yəni Alman məhkəmələrinin ərizəçini soyqırımı cinayətinə görə mühakimə etmək yurisdiksiyasını öz üzərinə götürməsinin ağlabatan olduğunu nəzərə alaraq, Məhkəməmə nəticəyə gəlir ki, ərizəçinin Konvensiyanın 5-ci maddəsinin 1(a) bəndinə uyğun olaraq "səlahiyyətli məhkəmə tərəfindən" məhkum edildikdən sonra həbs olunması da qanuni idi. Beləcə, həmin maddənin də pozuntusu baş verməmişdir.

## II. KONVENSİYANIN 6-CI MADDƏSİNİN 1-Cİ VƏ 3(D) BƏNDLƏRİNİN İDDİA EDİLƏN POZUNTUSU

73. Ərizəçi iddia edirdi ki, Cinayət Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndinə əsaslanaraq, Düsseldorf Apelyasiya Məhkəməsi müdafiə tərəfinin xaricdən çağırılmalı olan şahidlərini dəvət etməkdən imtina etdiyinə görə onun işinə Konvensiyanın 6-cı maddəsinin 1-ci və 3(d) bəndləri mənasında ədalətli məhkəmə tərəfindən baxılmamışdır. O, daha sonra şikayət edirdi ki, Qrabskada iddia edilən cinayətin törədildiyi əraziyə baxış keçirilməsinə və ya topoqrafik xəritənin çəkilməsinə dair Apelyasiya Məhkəməsinin imtinası da Konvensiyanın 6-cı maddəsinin 1-ci və 3(d) bəndlərinin pozulmasına bərabər idi. Bu bəndlərin müvafiq hissələrində deyilir:

> "1. Hər kəs... ona qarşı hər hansı cinayət ittihamı irəli sürülərkən, ... məhkəmə vasitəsi ilə... ədalətli... araşdırma...hüququna malikdir.
>
> 3. Cinayət törətməkdə ittiham olunan hər kəs ən azı aşağıdakı hüquqlara malikdir:
>
> ...
>
> (d) onun əleyhinə ifadə vermiş şahidləri dindirmək və ya bu şahidlərin dindirilməsi hüququna malik olmaq və onun əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə onun lehinə olan şahidlər çağırılması və dindirilməsi hüququna malik olmaq;"

74. Hökumət tərəfi bu təqdimatı mübahisələndirmişdir.

### A. Tərəflərin təqdimatları

#### *1. Hökumət*

75. Hökumətin təqdimatı ondan ibarət idi ki, ərizəçi Federal Ədliyyə Məhkəməsində olan icraat zamanı iyirmi səkkiz şahidin çağırılmasından imtinaya dair Apelyasiya Məhkəməsinə verdiyi etirazla bağlı daxili vasitələri tükəndirməyib, çünki o, öz şikayətini yetərincə əsaslandırmayıb. Hökumət daha sonra arqument gətirib ki, ərizəçi Federal Ədliyyə Məhkəməsində olan icraat zamanı Apelyasiya Məhkəməsinin Qrabskadakı cinayətin törədildiyi yerə baxış keçirtməkdən imtinasına dair hər hansı bir

formada şikayət etməmişdir və bu səbəbdən bu konkret hal üzrə də daxili vasitələri tükəndirməyib.

76. Hökumət daha sonra iddia edirdi ki, ərizəçi artıq Konvensiya hüquqlarının pozulduğuna görə qurban olduğunu iddia edə bilməz və şikayət Konvensiyaya *ratione personae* uyğun deyil, çünki onun şikayətləri Qrabskada iyirmi səkkiz şəxsin öldürülməsi ittihamı üzrə sübutların götürülməsinə dair xahişləri ilə əlaqədar idi. Hökumət, bu cinayətlərə görə ərizəçiyə qarşı cinayət işinin yenidən açıldığını və bu cinayət əməlləri ilə bağlı davam etdirilmədiyini arqument gətirib.

77. Hökumət qeyd etmişdir ki, hər bir halda ərizəçinin Konvensiyanın 6-cı maddəsi ilə ədalətli mühakimə hüququ pozulmamışdır. Apelyasiya Məhkəməsi həmin müddəanın tələblərinə uyğun şəkildə sübutları götürmüşdür. Xüsusi ilə Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinə uyğun olaraq, sübutların götürülməsinə dair eyni qaydalar həm ittiham tərəfinə, həm də müdafiə tərəfinə şamil edilib. Alman Cinayət Prosessual Məcəlləsinə uyğun olaraq, cinayət işlərinə baxan məhkəmələr öz vəsatətlərinin həqiqətə uyğunluğunu özləri yoxlamalı idilər. Xaricdə törədilən cinayətlərin araşdırılmasının çoxlu prosessual problemlər ortaya çıxarmasına baxmayaraq, təqsirləndirilən şəxslər cinayət prosesinə dair qaydalar ilə və şübhənin onların xeyrinə şərh edilməsi ilə müdafiə olunmuşdu.

78. Hökumətin fikrincə, Apelyasiya Məhkəməsi əlavə sübutların götürülməsinə dair ərizəçinin müraciətini rədd etməklə əsassız hərəkət etməmişdir. O, ərizəçinin xahişlərini lazımı qaydada araşdırmış və onları rədd edərkən obyektiv əsaslandırma vermişdir. Onun, Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndi ilə işin hallarına görə həqiqəti təsdiqləmək üçün ərizəçinin seçdiyi şahidlərin dəvət edilməsinin zəruri olmadığına dair gəldiyi nəticə qanunla səhv hesab olunmur və Apelyasiya Məhkəməsi öz qərarlarını tam olaraq əsaslandırmışdır.

*2. Ərizəçi*

79. Ərizəçi Hökumətin mövqeyini mübahisələndirib. O vurğulayıb ki, Federal Konstitusiya Məhkəməsi onun ərizəsini daxili vasitələri tükətmədiyinə görə rədd etməmişdir və Konvensiyanın 6-cı maddəsinin pozuntusuna görə o, qurban statusunu itirməmişdir.

80. Ərizəçi şikayət edirdi ki, Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi və 3(d) bəndi pozulmuşdur, çünki Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndinin ikinci cümləsinə əsasən, Apelyasiya Məhkəməsi onun tərəfindən seçilmiş və xaricdən çağırılmalı olan iyirmi səkkiz şahidin heç birini dəvət etməmişdir, halbuki ittiham tərəfinin seçdiyi altı şahid xaricdən dəvət olunub dindirilmişdir. O bildirmişdir ki, əgər Apelyasiya Məhkəməsi işin hallarına görə öz diskresion səlahiyyətlərindən səlahiyyətlərindən düzgün istifadə etsəydi, Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndini tətbiq etməzdi. Sözügedən müddəa xaricdən

çağırılmalı olan şahidlərin dəvət edilməsinə imtina etmək üçün şərtləri müəyyən edir və bu şərtlər Almaniyada yaşayan şahidlərin dəvət edilməsindən imtina üçün tətbiq edilən şərtlərdən daha az sərtdir. O, belə bir ehtimala söykənirdi ki, Almaniyadakı cinayət işi üzrə dinləmələrdə sübut əsasən Almaniyada əldə edilə bilərdi. Lakin hazırkı işdə güman edildiyi kimi əməllər Bosniya və Herseqovinada törədildiyindən, bir qayda olaraq, bütün şahidlər xaricdə yaşayırdı. Buna görə də Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndinin tətbiqi əsassız idi. Apelyasiya Məhkəməsi təklif edilən şahidləri çağırsaydı, o, dərhal müəyyən edərdi ki, ittiham tərəfinin şahidlərinin Qrabskadakı güman edilən cinayətlərə dair söylədikləri həqiqətə uyğun deyildir.

## B. Məhkəmənin qiymətləndirməsi

81. Hazırkı işdə Məhkəmə daxili vasitələrin tükənmədiyinə dair Hökumətin etirazına və ərizəçinin qurban statusuna dair qərar qəbul etməyə ehtiyac duymur, çünki o hesab edir ki, hətta ərizəçinin bütün daxili vasitələri tükəndirdiyi ehtimal olunsa və o, bütün mənalarda Konvensiyanın 6-cı maddəsinin pozulmasının qurbanı olduğunu iddia edə bilsə belə, aşağıdakı qeyd olunan səbəblərə görə ərizə hər bir halda qəbuledilməz olacaqdır.

### *1. Ümumi prinsiplər*

82. Məhkəmə təkrar edir ki, ümumi qayda kimi milli məhkəmələr onlara təqdim edilən sübutlara dair və təqsirləndirilən şəxsin təqdim etmək istədiyi sübutun işə aidiyyətinin olub-olmasına dair qərarı ilk əvvəl özləri verməlidirlər. Daha konkret desək, 6-cı maddənin 1-ci bəndində əks olunan ədalətli mühakimə kimi ümumi konsepsiyanın spesifik aspektləri 6-cı maddənin 3(d) bəndində sadalanır və prinsipcə, bu maddə onlara xüsusi olaraq müəyyən şahidləri dəvət etməyin məqsədəuyğun olub-olmamasını qiymətləndirmək sərbəstliyini verir. O tələb etmir ki, təqsirləndirilən tərəfin hər bir şahidi dindirilsin. Lakin Məhkəmənin vəzifəsi sübutların qəbul edilməsi və qiymətləndirilməsinin "silahların bərabərlik hüququ" prinsipini pozub-pozmamasından, hansı ki, pozulduğu halda məhkəmə icraatını ümumilikdə ədalətsiz edir, əmin olmaqdır (bax: *digərləri ilə birlikdə*, Vidal Belçikaya qarşı işi *(Vidal v. Belgium)*, 22 aprel 1992-ci il, 33-cü bənd, A Seriyaları no. 235-B; və Heydeqqer Avstriyaya qarşı işi *(Heidegger v. Austria)*, 27077/95 saylı ərizə, 5 oktyabr 1999-cu il).

83. Fərdi ərizələrdən irəli gələn işlərdə Məhkəmə daxili qanunvericiliyi ümumi olaraq araşdırmır, amma o, konkret hallarda həmin qanunvericiliyin ərizəçiyə hansı formada tətbiq edildiyini araşdırmalıdır (bax: digər işlərlə yanaşı, Sahin Almaniyaya qarşı işi *(Sahin v. Germany* [GC]), 30943/96 saylı ərizə, 87-cü bənd, ECHR 2003-VIII və Sommerfeld Almaniyaya qarşı

işi *(Sommerfeld v. Germany* [GC]*)*, 31871/96 saylı ərizə, 86-cı bənd, ECHR 2003-VIII).

*2. Həmin prinsiplərin hazırkı işə tətbiqi*

84. Ona görə də Məhkəmə, yerli məhkəmələr tərəfindən Cinayət Məcəlləsinin 244-cü maddəsinin tətbiqinin və nəticədə onların konkret şahidləri dəvət etməkdən, güman edilən cinayətin törədildiyi yerə baxış keçirməkdən və ya topoqrafik xəritənin çəkməkdən imtina etməsinin məhkəmə icraatını ümumilikdə ədalətsiz edib-etməməsini müəyyən etməlidir.

85. İlk öncə Məhkəmə müşahidə edir ki, Cinayət Məcəlləsinin 244-cü maddəsinin istər müdafiə, istərsə də ittiham tərəfinin şahid dəvət etmək və ya digər sübutları əldə etmək kimi xahişlərinə tətbiq olunmasını tərəflər mübahisələndirmir. Hazırkı işdə olduğu kimi cinayət Almaniyanın hüdudlarından kənarda törədildikdə və Alman tərəfi bir qayda olaraq, xaricdən sübut əldə etməyin zəruri olduğunu əsaslandırdıqda, həmin maddənin tətbiqi ümumilikdə ittiham tərəfinin sübutlarının qəbul etməyə dair vəsatətlərinə üstünlük vermirdi. Bundan başqa, doğrudur ki, Cinayət Prosessual Məcəlləsinin 244-cü maddəsinin 5-ci bəndinin ikinci cümləsi xaricdən çağırılmalı olan həm ittiham tərəfinin, həm də müdafiə tərəfinin şahidlərini dindirməyə dair vəsatətlərinin rədd edilməsinə xüsusi şərtlər qoyur. Əlbəttə ki, bu şərtlər Almaniya daxilində çağırıla bilən şahidin ifadələrini dinləmək üçün verilən vəsatətin rədd edilməsinə qoyulan şərtlərdən daha sərtdir. Lakin, bu şahidlər avtomatik olaraq əldə oluna bilməyən sübut sayılmırlar. Yenə də, təqdim edilən sübutlara ilkin qiymət verərkən, məhkəmələr belə nəticəyə gələ bilər ki, bu şahidin dindirilməsi həqiqəti sübuta yetirmək üçün zəruri deyil (bax: yuxarıda 39-cu bənd).

86. Məhkəmə daha sonra qeyd edir ki, Apelyasiya Məhkəməsi birinci instansiya məhkəməsi kimi çıxış edərkən, Bosniyada yaşayan ərizəçi tərəfindən təklif olunan iyirmi səkkiz şahidin heç birini çağırmağa razı olmamışdır, halbuki o, ittiham tərəfinin xaricdə yaşayan altı şahidini məhkəməyə çağırmışdır. Lakin bu fakt özü-özlüyündə silahların bərabərlik hüququnun və ya ərizəçinin şahidləri dəvət etmək hüququnu əldə etməsinin nəzərə alınmadığı qənaətinə gəlməyə və nəticədə məhkəmə icraatını ümumilikdə ədalətsiz adlandırmağa əsas vermir. Bu baxımdan Məhkəmə xüsusi ilə müşahidə edir ki, Apelyasiya Məhkəməsi əlavə sübutları qəbul etməməyə dair təfərrüatlı əsaslandırma verərək, eyni faktı (konkret olaraq ərizəçinin cinayət törədilən zaman həbsdə olmasını) sübuta yetirmək üçün qeyd edilən iyirmi səkkiz şahidin ən azı yeddisinin yazılı ifadələrini nəzərə alıb və yalnız bundan sonra bütün iyirmi səkkiz şahidin ifadələrinin sübut kimi az dəyərə malik olması və işə dair qərar çıxarmaq üçün qeyri-münasib olması nəticəsinə gəlib. Məhkəmə müşahidə edir ki, Apelyasiya Məhkəməsi ərizəçinin bu şahidləri dəvət etməsinə dair xahişini rədd edərkən artıq iyirmidən çox şahidin ifadələrini dinləmişdi və bunların arasında ərizəçinin

törətdiyi iddia edilən cinayətin təsirinə məruz qalmayan iki jurnalist də var idi (bir qayda olaraq, bu səbəbdən onların ifadələri xüsusi ilə etibarlı sayıla bilərdi). Ərizəçi tərəfindən çarpaz dindirilə bilən bu şahidlərin hamısı ərizəçini onun həbsdə olduğunu iddia etdiyi müddətdə azadlıqda gördüklərini qeyd etmişlər. Belə olduqda Məhkəmə yerli məhkəmələrin ərizəçi tərəfindən onun cinayət törədilən zaman həbsdə olmasını təsdiq edən şahid ifadələrinin qeyri-münasib olmasına dair qərarını əsassız hesab etmir. Buna görə də Məhkəmə ərizəçiyə qarşı məhkəmə icraatının ümumilikdə ədalətsiz olmasına dəlalət edən heç bir hal görmür.

87. İddia edilən əməllərə dair şahid ifadələrinin həqiqətə uyğun olmadığını sübut etmək məqsədi ilə ərizəçinin Qrabskada cinayət yerinə baxış keçirilməsindən və ya topoqrafik xəritənin çəkilməsindən Apelyasiya Məhkəməsinin imtina etməsinə dair verdiyi şikayətə gəldikdə, Məhkəmə hesab edir ki, Apelyasiya Məhkəməsi bu sübutun götürülməsinin niyə mümkün olmadığına dair qərarını yetərincə əsaslandırmışdır. Sözügedən ərazinin video çəkilişinin Apelyasiya Məhkəməsində mövcud olmasını və ərizəçinin mübahisələndirilən əməllərə görə əldə edilən sübutun danılmaz olmasını mübahisələndirə bilmək imkanını nəzərə alaraq, Məhkəmə əlavə sübutun götürülməməsinin 6-cı Maddənin 1-ci və 3-cü bəndlərinə uyğun olmamasına dəlalət edən heç bir işarə tapmayıb.

88. Bu səbəbdən ərizəçinin Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi və 3(d) bəndi ilə verdiyi şikayətlər aşkar əsassız olduğundan Konvensiyanın 35-ci maddəsinin 3 və 4-cü bəndlərinə uyğun olaraq rədd edilməlidir.

## III. KONVENSİYANIN 7-Cİ MADDƏSİNİN İDDİA EDİLƏN POZUNTUSU

89. Ərizəçi daha sonra şikayət edib ki, soyqırımı cinayətinin Alman məhkəmələri tərəfindən qəbul edilən geniş şərhi həmin cinayətin Almaniya qanunvericiliyində və beynəlxalq ümumi hüquqdakı interpretasiyasında öz əksini tapmamışdı və Alman məhkəmələri onun təqsirinin xüsusi ilə ağır olduğunu əsassız olaraq müəyyən etmişlər. O iddia edib ki, bu səbəbdən onun məhkum edilməsi Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndinin pozulmasına bərabər idi. Bu maddədə deyilir:

> “Heç kəs törədildiyi zaman milli və ya beynəlxalq hüquqa görə cinayət sayılmayan hər hansı hərəkət və ya hərəkətsizliyə görə cinayət törətməkdə təqsirli hesab edilə bilməz. Habelə cinayət əməli törədildiyi zaman tətbiq edilməli olan cəzadan daha ağır cəza verilə bilməz.”

90. Hökumət bu arqumenti mübahisələndirib.

### A. Qəbuledilənlilik məsələsi haqqında

91. Məhkəmə qeyd edir ki, şikayət Konvensiyanın 35-ci maddəsinin 3-cü bəndi baxımından aşkar əsassız deyil. O, daha sonra qeyd edir ki, şikayət digər əsaslarla da qəbul edilən sayılmaya bilməz. Bu səbəbdən o, qəbul edilən hesab edilməlidir.

## B. Mahiyyət məsələləri

### *1. Tərəflərin təqdimatları*

#### (a) Ərizəçi

912. Ərizəçi qeyd etmişdir ki, Cinayət Məcəlləsinin 220a maddəsi ilə soyqırımı cinayətinə görə məhkum etmək üçün cinayətkarın hər hansı milli, irqi, etnik və ya dini qrupu qismən və ya bütövlükdə məhv etmək niyyətinin olmasını sübuta yetirmək tələb olunur. O qeyd edirdi ki, hazırkı işdə olduğu kimi "məhv etmək" ifadəsinin hərfi mənasına görə, yaşayış şəraitinə və ya qrupun dolanışıq mənbələrinə sadəcə hücum edilməsi qrupun özünün məhv edilməsi demək deyildir. Doboy rayonunda Bosniyalı serblər tərəfindən aparılan "etnik təmizləmə" sadəcə həmin ərazidən zorla bütün müsəlmanları qaçırtmaq, yəni bu qrupun mövcudluğunu dağıtmaq deyil, onu qovmaq məqsədi daşıyırdı. Bu səbəbdən o, Cinayət Məcəlləsinin 220a maddəsində ifadə olunan mənada soyqırımı cinayəti sayıla bilməz.

923. Bundan başqa, ərizəçinin dediklərinə əsasən, Alman məhkəmələri tərəfindən, Soyqırımı Konvensiyasını milli qanunvericiliyə inkorporasiya etmək məqsədi daşıyan 220a maddəsindəki "məhv etmək niyyəti" ifadəsinə verdiyi interpretasiya bir çox dövlətlər tərəfindən qəbul edilən Soyqırımı Konvensiyanın 2-ci maddəsində olan eyni ifadənin şərhinə zidd idi. Əslində beynəlxalq aləmdə qəbul edilmiş doktrinaya uyğun olaraq, soyqırımı yalnız dar çərçivədə müəyyən edilmiş qrupu kənar etmək, yəni sadəcə sosial vahid kimi deyil, onu bioloji-fiziki mənada məhv etmək məqsədi ilə ölüm, məhv etmə və ya deportasiya halları olan işlərə şamil edilir. Keçmiş Yuqoslaviyada baş verən etnik təmizləmə Nasist rejimində yəhudilərin, elə Soyqırımı Konvensiyasının yaranmasına səbəb olan məhv edilməsi ilə müqayisə edilə bilməz.

934. Ərizəçi iddia edib ki, əməllərin törədildiyi zaman onun üçün bu əvvəlcədən görünə bilən deyildi ki, Alman məhkəmələri bu əməlləri alman hüququna və beynəlxalq ümumi hüquqa əsaslanaraq soyqırımı cinayəti kimi tövsif edəcəklər.

945. Eyni zamanda ərizəçinin dediyinə görə, Alman məhkəmələrinin onun təqsirinin xüsusi ilə ağır olmasını müəyyən etməsi Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndinin pozulmasına bərabər idi, çünki məhkəmələr Bosniyada törədildiyi iddia edilən soyqırımı cinayətində onun yalnız az əhəmiyyətli rol oynadığını nəzərə almayıb.

**(b) Hökumət**

956. Hökumətin fikrincə, Alman məhkəmələrinin "soyqırımı" ifadəsinə verdiyi şərh Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndini pozmurdu. Alman Cinayət Məcəlləsinin 220a maddəsindəki soyqırımı cinayətinin ifadəsi soyqırımı anlayışını bir qrupu sosial vahid kimi məhv etmək niyyəti ilə törədilən əməllər kimi şərh etməyə imkan verir. Xüsusi olaraq, məhv etmək niyyəti "müəyyən bir qrupa" qarşı yönəlmiş olmalıdır ki, burada qrupun tək fiziki deyil, sosial mövcudluğu da müdafiə olunur. Bundan başqa 220a maddəsinin 1-ci bəndinin 4-cü (qrup daxilində nəsil artırmanın qarşısının alınmasına yönələn tədbirlərin görülməsi) və 5-ci yarımbəndlərində (bir qrupun uşaqlarının məcburi şəkildə digər qrupa verilməsi) əks olunan soyqırımı cinayətinin anlayışı sözügedən qrupun yaşayan üzvlərinin fiziki olaraq məhv edilməsini nəzərdə tutmurdu.

967. Eyni səbəblərlə, Cinayət Məcəlləsinin 220a maddəsinə uyğun olan Soyqırımı Konvensiyasının 2-ci maddəsinin ifadə tərzi soyqırımı cinayətini sözügedən qrupun fiziki-bioloji məhvi ilə məhdudlaşdırmır. Bu yanaşma Soyqırımı Konvensiyasını qrupu sosial vahid olaraq (bax: yuxarıda 41-ci bənd) müdafiə edən vasitə kimi şərh edən çoxsaylı alimlər və BMT-nin Baş Assambleyası tərəfindən təsdiq olunmuşdur.

98. Alman məhkəmələrinin soyqırımı cinayətinə verdiyi şərhin Cinayət Məcəlləsinin 220a maddəsinə uyğun olmasını nəzərə alaraq, yerli məhkəmələrin şərhi ərizəçi üçün 1992-ci ildə əməlləri törədən zaman qabaqcadan görünə bilən idi. Bundan başqa, alman alimləri həmin vaxt artıq belə mövqe tutmuşdular ki, soyqırımı cinayətinə görə cinayət məsuliyyəti eyni zamanda qrupların sosial mövcudluğunu da müdafiə etməyə yönəlib (bax: yuxarıda bənd 36).

979. Hökumət qəbul edib ki, Prokuror Krstiçə qarşı (*Prosecutor v. Krstić*) işində YBCM-in Məhkəmə Palatası 2 avqust 2001-ci il tarixli qərarında apelyasiya qaydasında qüvvədə saxlanıldığı kimi "məhv etmək niyyəti" anlayışına Federal Konstitusiya Məhkəməsi tərəfindən hazırkı işdə verilən şərhi rədd etmişdir. *Nullum crimen sine lege* prinsipinə əsaslanaraq, YBCM ilk dəfə beynəlxalq ümumi hüquqda soyqırımı cinayətinin qrupun fiziki və ya bioloji məhvinə yönələn əməllər ilə məhdudlaşmasını mübahisələndirmişdir. Lakin, 2001-ci ildə YBCM tərəfindən soyqırımı cinayətinin əhatə dairəsinin Hökumətin fikrincə inandırıcı olmayan bu cür dar şərhi ərizəçi üçün 1992-ci ildə törədərkən bu əməllərin soyqırımı kimi tövsif ediləbiləcəyinin qabaqcadan görülə bilən olması faktını mübahisələndirmirdi. Hər bir halda Alman məhkəmələri etnik təmizləməni ümumilikdə soyqırımı kimi tövsif etməmişdir, lakin işin hallarına görə ərizəçini soyqırımı cinayətində təqsirli bilmişdir, çünki o, sosial vahid kimi qrupu sadəcə qovmaq deyil, məhv etmək niyyəti ilə hərəkət etmişdir.

*2. Məhkəmənin qiymətləndirməsi*

**(a) Ümumi prinsiplər**

100. Məhkəmə Konvensiyanın 7-ci maddəsində nəzərdə tutulan təminatın qanunun aliliyinin ayrılmaz hissəsi olduğunu bir daha xatırladır. O, cinayət qanununun təqsirləndirilən şəxsin ziyanına retroaktiv qaydada tətbiq edilməsinin qadağan olunması ilə məhdudlaşmır. O, həmçinin, daha ümumi olaraq qanunun cinayəti müəyyən etməsi və cəza nəzərdə tutması kimi prinsipi (*nullum crimen, nulla poena sine lege*) və, misal üçün, analogiya vasitəsi ilə qanunu sıx-sıx təqsirləndirilən şəxsin ziyanına şərh etməmək prinsipini ehtiva edir. Bu prinsiplərdən belə çıxır ki, cinayət əməli qanunda aydın şəkildə müəyyən olunmalıdır. Bu tələbə o halda riayət edilmiş olur ki, ərizəçi müvafiq müddəanın mənasından və ehtiyac olduqda, onun məhkəmə tərəfindən şərhindən hansı əməllərin və hərəkətsizliyin onu cinayət məsuliyyətinə gətirib çıxarmasını başa düşsün. "Qanun" haqqında danışarkən 7-ci maddə Konvensiyanın digər maddələrində həmin termindən istifadə edərkən nəzərdə tutduğu eyni konsepsiyaya istinad edir, bu yazılmış və yazılmamış qanunu əhatə edir və keyfiyyət tələblərini, xüsusi ilə qəbuledilənlilik və qabaqcadan görülə bilməni nəzərdə tutur (bax: *digərləri ilə birlikdə*, S.V. Birləşmiş Krallığa qarşı (*S.W. v. the United Kingdom)*, 22 noyabr 1995-ci il, 34-35-ci bəndlər, A Seritaları, no. 335-B; K.R. Birləşmiş Krallığa qarşı (*C.R. v. the United Kingdom)*, 22 noyabr 1995-ci il, 32-33-cü bəndlər, A Seriyaları no. 335-C; və Strelets, Kesler və Krens Almaniyaya qarşı (*Streletz, Kessler and Krenz v. Germany)* [GC], 34044/96, 35532/97 və 44801/98 saylı ərizələr, 50-ci bəndlər, ECHR 2001-II).

101. Cinayət hüququ da daxil olmaqla, istənilən hüquq sistemində nə qədər aydın şəkildə müəyyən edilmiş hüquqi müddəa olsa da, qaçılmaz olaraq məhkəmə şərhi elementi mövcuddur və hər zaman şübhəli məqamların izah edilməsinə və dəyişən şəraitə uyğunlaşmaya ehtiyac duyulur. Həqiqətən də, Konvensiyaya qoşulan dövlətlərdə cinayət hüququnun məhkəmə tərəfindən norma yaratma vasitəsi ilə inkişafı hüquq ənənəsinin oturuşmuş və zəruri hissəsidir. Konvensiyanın 7-ci maddəsi cinayət məsuliyyəti qaydalarının tədricən, işdən-işə həyata keçirilən məhkəmə interpretasiyası vasitəsilə aydınlaşdırılmasını qanundan kənar edən maddə kimi şərh edilə bilməz, o şərtlə ki, nəticə etibarı ilə inkişaf cinayətin mahiyyəti ilə uyğun və ağlabatan şəkildə qabaqcadan görülə bilən olsun (bax: *digərləri ilə birlikdə*, yuxarıda qeyd edilən S.V. Birləşmiş Krallığa qarşı işi (*S.W. v. the United Kingdom)*, 36-cı bənd; yuxarıda qeyd edilən K.R. Birləşmiş Krallığa qarşı *(C.R. v. the United Kingdom)*, 34-cü bənd; yuxarıda qeyd edilən Strelets, Kesler və Krens işi (*Streletz, Kessler and Krenz)*, 50-ci bənd; və K-H.V Almaniyaya qarşı (*K.-H.W. v. Germany* [GC]), 37201/97 saylı ərizə, 45-ci bənd, ECHR 2001-II).

98. Daxili qanunvericiliyin şərhinə və tətbiqinə gəldikdə, Məhkəmə xatırladır ki, ölkədaxili qanunları şərh etmək və tətbiq etmək vəzifəsi əsasən

milli orqanlara, xüsusi olaraq məhkəmələrə həvalə edilib (bax: *mutatis mutandis*, Kop İsveçrəyə qarşı *(Kopp v. Switzerland)*, 25 mart 1998, 59-cu il, *Reports of Judgments and Decisions* 1998-II və yuxarıda qeyd edilən Strelets, Kesler və Krens işi (*Streletz, Kessler and Krenz)*, 49-cu bənd). Konvensiyanın 19-cu maddəsinə uyğun olaraq, Məhkəmənin vəzifəsinin Konvensiyaya Tərəf çıxan Dövlətlər tərəfindən öz üzərlərinə götürdükləri öhdəliklərin icra edilməsini təmin etmək olmasına baxmayaraq, faktın və ya hüququn səhvləri ilə əlaqədar güman edildiyi kimi yerli məhkəmələr tərəfindən yol verilən pozuntularla (əgər onlar Konvensiya ilə müdafiə olunan hüquq və azadlıqları pozmayıbsa) məşğul olmaq Məhkəmənin vəzifəsi deyil (bax: *mutatis mutandis*, Şenk İsveçrəyə qarşı *(Schenk v. Switzerland)*, 12 iyul 1988, 45-ci bənd, A Seritaları no. 140 və yuxarıda qeyd edilən Strelets, Kesler və Krens işi *(Streletz, Kessler and Krenz)*, 49-cu bənd).

**(b) Həmin prinsiplərin hazırkı işə tətbiqi**

99. Beləliklə, yuxarıda qeyd edilən prinsiplərə uyğun olaraq, Məhkəmə Alman hüququnda soyqırımı cinayətinə milli məhkəmələrin verdiyi şərhin, xüsusən də Bosniya və Herseqovinada etnik təmizləmə zamanı ərizəçinin əməllərinin də soyqırımında "məhv etmək niyyəti" ifadəsi ilə əhatə olunmasının şərhinin həmin əməlin mahiyyəti ilə uyğun olub-olmaması və sözügedən zaman kəsiyində ərizəçi tərəfindən ağlabatan şəkildə qabaqcadan görülə bilən olub-olmaması barədə qərar qəbul etməlidir.

100. İlk olaraq Alman məhkəmələrinin şərhinin soyqırımı cinayətinin mahiyyəti ilə uyğun olub-olmadığını müəyyən edərkən, Məhkəmə yerli məhkəmələrin həmin cinayəti dar şərh etmədiyini müşahidə edir. Onların şərhinə görə, Cinayət Məcəlləsinin 220a maddəsinə uyğun olaraq, qrupu "məhv etmək niyyəti" Soyqırımı Konvensiyasının 2-ci maddəsi baxımından şərh edildiyi kimi fiziki və bioloji mənada qrupun məhv edilməsini zəruri etmir. Cinayətkarın sözügedən qrupu bir sosial vahid kimi məhv etmək niyyətində olmağı yetərlidir.

101. Məhkəmə qeyd edir ki, yerli məhkəmələr sistematik olaraq bütövlükdə Cinayət Məcəlləsinin 220a maddəsinin 1-ci bəndi kontekstində "müəyyən bir qrupu məhv etmək niyyəti" ifadəsini şərh etmişlər və həmin müddəanın, hansı ki, sözügedən qrupun yaşayan üzvlərinin fiziki məhvini zəruri etmir, xüsusən 4-ci yarımbəndinə (qrup daxilində nəsil artırmanın qarşısının alınmasına yönələn tədbirlərin görülməsi) və 5-ci yarımbəndinə (bir qrupun uşaqlarının məcburi şəkildə digər qrupa verilməsi) diqqət yetirmişlər. Məhkəmə müəyyən edir ki, yerli məhkəmələrin "qrupu məhv etmək niyyəti" ifadəsinin qrupun fiziki məhvini əhatə etməməsi kimi şərhi, ki bunu bir sıra alimlər də qəbul edirdi (bax: yuxarıda 36 və 47-ci bəndlər), Cinayət Məcəlləsində onun kontekstində oxunduqda soyqırımı cinayətinin mənası ilə əhatə olunur və əsassız görünmür.

102. Bundan başqa, o, yerli məhkəmələr kimi, soyqırımı cinayətinin mahiyyətini müəyyən etmək üçün Soyqırımı Konvensiyasının 2-ci maddəsində soyqırımı cinayətinin qadağan edilməsinin milli qanunvericiliyə daxil edilməsini nəzərə almağı vacib hesab edir; qeyd etmək lazımdır ki, 220a maddəsi Cinayət Məcəlləsinə məhz bu məqsədlə daxil edilmişdir və sözügedən maddə ona uyğun şərh edilməlidir. Nəzərə alsaq ki, soyqırımı cinayətinin anlayışı baxımından Cinayət Məcəlləsinin 220a maddəsinin ifadə tərzi Soyqırımı Konvensiyasının 2-ci maddəsinə uyğundur, soyqırımı cinayətinin qadağan edilməsinə dair yuxarıdakı əsaslandırma eyni ilə tətbiq edilir.

103. Bundan başqa, cinayət törədilən zaman alman məhkəmələrinin şərhi təkcə bir sıra alimlər tərəfindən dəstəklənməmişdir (bax: yuxarıda 36-cı bənd), BMT-nin Baş Assambleyası da 18 dekabr 1992-ci il tarixli 47/121 saylı Qətnaməsində alman məhkəmələrinin hazırkı işdə verdiyi geniş şərh ilə razılaşmışdır (bax: yuxarıda 41-ci bənd).

104. Bu səbəbdən sosial vahid kimi müsəlmanlar qrupunu məhv etmək niyyəti ilə Doboy rayonunda etnik təmizləmə apardığı zaman ərizəçinin törətdiyi əməllər əsaslı olaraq soyqırımı cinayətinin əhatə dairəsinə aid olan əməllər kimi qiymətləndirilə bilər.

105. İkincisi, yerli məhkəmələrin soyqırımı cinayətinə verdiyi şərhin sözügedən vaxt kəsiyində ərizəçi tərəfindən qabaqcadan görülə bilən olub-olmamasını müəyyən edərkən, Məhkəmə 220a maddəsinin Cinayət Məcəlləsinə 1955-ci ildə daxil edildiyindən sonra bu maddə ilə alman məhkəmələri tərəfindən soyqırımı cinayətinə görə məhkum edilən ilk insanın ərizəçi olduğunu qeyd edir. Belə olan təqdirdə Məhkəmə müəyyən edir ki, mövcud olan məhkəmə təcrübəsinin dəyişməsi ilə əlaqədar işlərdən fərqli olaraq, hazırkı işdə olduğu kimi cinayətin mahiyyətinə uyğun şəkildə onun şərh edilməsi bir qayda olaraq qabaqcadan görülə bilən olmalıdır. Buna baxmayaraq, Məhkəmə istisna etmir ki, müstəsna olaraq, işin xüsusi hallarında ərizəçi yerli məhkəmələr tərəfindən qəbul edilən müddəanın konkret şərhinə arxalana bilərdi.

106. Məhkəmə hazırkı işdə beynəlxalq ümumi hüquqdan irəli gələn müddəanın yerli məhkəmələr tərəfindən şərh edilməsi məsələsinə dair bunu vacib hesab edir ki, Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndinin təmin etdiyi müdafiənin səmərəli olmasından əmin olmaq üçün ərizəçinin gərək olarsa hüquqi yardım aldıqdan sonra konkret olaraq digər orqanlar tərəfindən soyqırımı cinayətinə verilən şərhi nəzərə almaqla, yerli məhkəmələrin soyqırımı cinayətinə verdiyi dar şərhə arxalana bilməsinə dair nəticəyə gəlməsini təmin edən xüsusi halların olub-olmadığı araşdırılmalıdır.

107. Bu baxımdan məhkəmə qeyd edir ki, Cinayət Məcəlləsinin 220a maddəsinin əsaslandığı Soyqırımı Konvensiyasının 2-ci maddəsinin əhatə dairəsinə dair konkret vaxt kəsiyində “qrupu məhv etmək niyyəti” anlayışı məsələsində alimlər arasında fərqli yanaşmalar mövcud idi. Bir çox

alimlərin serb qüvvələrinin Bosniya və Hersoqovinada müsəlmanları və xorvatları öz evlərindən qovmaq məqsədilə apardıqları etnik təmizləməni soyqırımı hesab etməməsinə baxmayaraq, kifayət sayda alimlər bu əməlləri əslində soyqırımı hesab edirdi (bax: yuxarıda 47-ci bənd).

108. Məhkəmə daha sonra müşahidə edir ki, hətta mübahisə edilən əməllər ərizəçi tərəfindən törədildikdən sonra da soyqırımı cinayətinin əhatə dairəsi beynəlxalq orqanlar tərəfindən müxtəlif şəkildə şərh edilmişdir. Doğrudur ki, YBCM Prokuror Kristiçə qarşı (*Prosecutor v. Krstić)* və Prokuror Kupreşkiç və digərlərinə qarşı (*Prosecutor v. Kupreškić and Others)* işlərində olan qərarlarında BMT-nin Baş Assambleyası və Alman məhkəmələri tərəfindən "məhv etmək niyyəti" ifadəsinə verilən geniş şərhi ilə açıq şəkildə razılaşmırdı. *Nullum crimen sine lege* prinsipinə istinad edərək, YBCM hesab edirdi ki, soyqırımı, beynəlxalq ümumi hüquqda müəyyən edildiyi kimi, müdafiə olunan qrupun yalnız fiziki və bioloji məhvinə yönəlmiş əməllərdən ibarətdir. Lakin soyqırımı cinayətinin yerli və beynəlxalq kodifikasiyasına dair YBCM-nin qərarları və həmçinin digər milli və beynəlxalq məhkəmələr, xüsusən də Beynəlxalq Ədalət Məhkəməsi (bax: yuxarıda 45-ci bənd) tərəfindən bu məsələylə bağlı qəbul edilən digər qərarlar onun törətdiyi əməllərdən sonra qəbul edildiyindən, ərizəçi konkret vaxt kəsiyində, yəni cinayət törətdiyi zaman alman hüququna dair Alman məhkəmələrinin verdiyi bu şərhə arxalana bilməzdi.

109. Qeyd edilənləri nəzərə alaraq, Məhkəmə belə nəticəyə gəlir ki, soyqırımı cinayətinin dar şərh edilməsinin çox sayda orqanlar tərəfindən dəstəklənməsinə baxmayaraq, o vaxt onu eynilə Alman məhkəmələri kimi şərh edən bir neçə orqan mövcud idi. Belə olan təqdirdə Məhkəmə hesab edir ki, ərizəçi ehtiyac olarsa hüquqşünasın köməyi ilə 1992-ci ildə törətdiyi əməllərə görə soyqırımı cinayəti ilə ittiham oluna və məhkum oluna biləcəyi riskini qabaqcadan ağlabatan şəkildə görə bilərdi. Bu kontekstdə Məhkəmə, həmçinin, ərizəçinin aşağıda sadalanan kifayət qədər ağır və uzunmüddətli əməllərin törədilməsində təqsirli bilinməsi faktını nəzərə alır: etnik təmizləmə siyasətini güdən hərbiləşdirilmiş qrupun rəhbəri kimi bir neçə insanın öldürülməsi, bir neçə aydan çox müddətdə çox sayda insanların saxlanılması və onlarla pis rəftar edilməsi.

110. Buna görə də, yerli məhkəmələrin soyqırımı cinayətinə verdiyi şərh həmin əməlin mahiyyəti ilə uyğun olan və sözügedən zaman kəsiyində ərizəçi tərəfindən ağlabatan şəkildə qabaqcadan görülə bilən kimi qəbul edilə bilər. Bu tələblərə cavab verildiyindən, Alman məhkəmələri özləri qərar qəbul etməli idilər ki, yerli qanunvericiliyə uyğun olaraq soyqırımı cinayətinin hansı şərhini qəbul etsinlər. Beləliklə, soyqırımı üzrə ərizəçinin məhkumluğu Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndini pozmamışdır.

111. 7-ci maddənin 1-ci bəndi ilə ərizəçinin digər şikayətinə, məhkəmələrin onun təqsirinin xüsusi ilə ağır olmasına gəldikdə, Məhkəmə qeyd edir ki, ərizəçinin bu baxımdan təqdim etdiyi arqumentlər faktiki və hüququ səhvlərin olması bəyanatları ilə məhdudlaşır. Onlar nə sözügedən

müddəanın, nə də Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndinin pozulmasını aşkarlamır.

112. Beləliklə, Məhkəmə Konvensiyanın 7-ci maddəsinin 1-ci bəndinin pozulmadığı qərarına gəlir.

BU ƏSASLARA GÖRƏ MƏHKƏMƏ YEKDİLLİKLƏ:

1. Konvensiyanın 6-cı maddəsinin 1-ci və 3-cü bəndlərinə müvafiq olaraq verilən və milli məhkəmələr tərəfindən sübutların götürülməsi ilə bağlı olan şikayətin qəbuledilməz, ərizənin yerdə qalan hissəsinin isə qəbuledilən olduğunu *elan edir*;

2. Ərizəçinin, Alman məhkəmələrinin onu soyqırımı cinayətində mühakimə etməyə səlahiyyətli olmaması ilə bağlı şikayəti üzrə Konvensiyanın 6-cı maddəsinin 1-ci bəndi və ya 5-ci maddəsinin 1-ci bəndinin pozulmadığını *qərara alır*;

3. Konvensiyanın 7-ci maddəsinin pozulmadığını *qərara alır*.

İngilis dilində hazırlanıb və 12 iyul 2007-ci ildə 2007-ci ildə Məhkəmə Reqlamentinin 77-ci qaydasının 2-ci və 3-cü bəndinə əsasən yazılı şəkildə açıqlanıb.

*Klavdiya Vesterdik* *Pir Lorenzen*
*(Claudia Westerdiek)* *(Peer Lorenzen)*
Katib Sədr

**©Avropa Şurası/Avropa İnsan Hüquqları Məhkəməsi, 2012**

Avropa İnsan Hüquqları Məhkəməsinin rəsmi dilləri ingilis və fransız dilləridir. Bu tərcümə Avropa Şurasının İnsan Hüquqları üzrə Etibar Fondunun dəstəyi ilə həyata keçirilib (www.coe.int/humanrightstrustfund). Məhkəmə tərcüməyə və onun keyfiyyətinə görə heç bir məsuliyyət daşımır. Tərcüməni Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququnu təşkil edən işlərin daxil olduğu HUDOC məlumat bazasından (http://hudoc.echr.coe.int) və ya Məhkəmənin razılığı ilə yerləşdirilən istənilən digər məlumat bazasından yükləmək olar. Tərcüməni qeyri-kommersiya məqsədlərilə bu şərtlə yenidən nəşr etmək mümkündür ki, məhkəmə işinin tam adı, yuxarıda göstərilmiş müəllif hüququna dair qeyd və Avropa Şurasının İnsan Hüquqları üzrə Etibar Fonduna istinad göstərilsin. Tərcümənin hər hansı bir hissəsindən kommersiya məqsədi ilə istifadə etmək

nəzərdə tutularsa, bu ünvana müraciət etmənizi xahiş edirik publishing@echr.coe.int.

.

**© Council of Europe/European Court of Human Rights, 2012.**

The official languages of the European Court of Human Rights are English and French. This translation was commissioned with the support of the Human Rights Trust Fund of the Council of Europe (www.coe.int/humanrightstrustfund). It does not bind the Court, nor does the Court take any responsibility for the quality thereof. It may be downloaded from the HUDOC case-law database of the European Court of Human Rights (http://hudoc.echr.coe.int) or from any other database with which the Court has shared it. It may be reproduced for non-commercial purposes on condition that the full title of the case is cited, together with the above copyright indication and reference to the Human Rights Trust Fund. If it is intended to use any part of this translation for commercial purposes, please contact publishing@echr.coe.int.

**© Conseil de l'Europe/Cour européenne des droits de l'homme, 2012.**

Les langues officielles de la Cour européenne des droits de l'homme sont le français et l'anglais. La présente traduction a été effectuée avec le soutien du Fonds fiduciaire pour les droits de l'homme du Conseil de l'Europe (www.coe.int/humanrightstrustfund). Elle ne lie pas la Cour, et celle-ci décline toute responsabilité quant à sa qualité. Elle peut être téléchargée à partir de HUDOC, la base de jurisprudence de la Cour européenne des droits de l'homme (http://hudoc.echr.coe.int), ou de toute autre base de données à laquelle HUDOC l'a communiquée. Elle peut être reproduite à des fins non commerciales, sous réserve que le titre de l'affaire soit cité en entier et s'accompagne de l'indication de copyright ci-dessus ainsi que de la référence au Fonds fiduciaire pour les droits de l'homme. Toute personne souhaitant se servir de tout ou partie de la présente traduction à des fins commerciales est invitée à le signaler à l'adresse suivante : publishing@echr.coe.int